**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

19 noyabr 2021-ci il
№44 (8952)

www.muallim.edu.az
muallim@edu.gov.az




## Müzəffər Ali Baş Komandana Türk Dünyasının Ali Ordeni təqdim olunub

# Bu mükafat bütün Azərbaycan xalqına verilmiş mükafatdır

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Əziz Qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan,

Əziz dövlət-hökumət başçıları,

İlk növbədə, bu yüksək mükafata görə, Türk Dünyasının Ali Ordeninə görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Bu, mənim üçün böyük şərəfdir, eyni zamanda, böyük məsuliyyətdir. Mənim sevincimi ikiqat edən odur ki, bu Ali Ordeni mənə Türk Şurasına üzv ölkələrin dövlət başçıları təqdim edirlər. Onların imzası ilə və əziz Qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə bu yüksək mükafat mənə verilir. Qeyd edilir ki, bu, Qarabağın azad edilməsi işində göstərdiyim səylərə və türk birliyinin daha da gücləndirilməsi işinə töhfələrimə görə verilir. Bu, türk dövlətləri tərəfindən mənim işimə, mənim fəaliyyətimə verilən çox yüksək mükafatdır, yüksək qiymətdir. Buna görə də mən bütün Azərbaycan xalqı adından çox dərin təşəkkürümü bildirirəm. Çünki mən belə zənn edirəm ki, bu mükafat bütün Azərbaycan xalqına verilmiş mükafatdır.

**Rəcəb Tayyib ƏRDOĞAN,**
**Türkiyə Respublikasının Prezidenti**

Hörmətli Prezident, Əziz qardaşım, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev.

Qarabağda təxminən otuz il davam edən işğala qətiyyətli rəhbərliyinizlə 44 gün kimi qısa müddətdə son qoyulub. Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır.

Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmişdir. Qarabağın azadlığının rəmzi olan "Xarıbülbül" türk dünyası üçün Zəfərin müjdəçisi olmuşdur.

Fürsətdən istifadə edərək əziz Qardaşım cənab İlham Əliyevə Türk Dünyasının Ali Ordenini təqdim etməkdən dərin məmnunluq duyur, azadlıq yolunda şəhid zirvəsinə ucalan qəhrəmanlarımızı rəhmət və ehtiramla yad edirəm.

## BU SAYIMIZDA

### Beynəlxalq olimpiadadan 4 medal



8-11 noyabr 2021-ci il tarixlərində Özbəkistanda Əl-Fərqani adına Beynəlxalq Fizika Olimpiadası *(https://en.iafpho2021.uz)* keçirilib. Rusiya, Türkiyə, Tayland, Malayziya kimi 19 fərqli ölkədən şagirdlərin qatıldığı olimpiadada Azərbaycanı təmsil edən məktəblilərimiz uğurlu nəticə göstərərək 4 medal əldə edib.

səh.5

### "Qazi müəllimlər"




"Qazi müəllimlər" kitabı millətin gələcəyi olan uşaqlara bilik və bacarıqlar aşılayan, Vətən üçün layiqli şəxsiyyət yetişdirən müəllim obrazını fərqli tərəfdən təqdim etmək imkanı yaradır. Yeni nəşr Qarabağ savaşından üzüağ çıxan, zəfər tarixinə öz imzasını atan müəllimlərə olan minnətdarlıq duyğusunun ifadəsidir.

səh.6

### STEM təhsil modeli



Məktəbəqədər təhsildə yeni təlim texnologiyalarından istifadə məktəbəqədər yaşlı uşaqların gələcək həyata hazırlanmasında, uşaq şəxsiyyətinin formalaşmasında, hərtərəfli inkişafında, uşaqların sərbəst fəaliyyətində, intellektual potensialının üzə çıxarılmasında müstəsna əhəmiyyətə malikdir.

səh.7

### Quba məktəblisinin uğuru



12-15 noyabr 2021-ci il tarixlərində taekvondo idman növü üzrə Bosniya və Herseqovinada gənc taekvondoçular arasında Avropa birinciliyi keçirilib. Yarışda iştirak edən Quba rayon ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman-şahmat məktəbinin idmançısı Səyyad Dadaşov 51 kq çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək Avropa çempionu olub.

səh.15

# Siz fəxr etməlisiniz ki, qalib xalqımızın şərəfli və qürurverici tarixinin şahidlərisiniz

## Azərbaycan Uşaqlarının V Ümumrespublika Forumunun iştirakçılarına



Hörmətli Forum iştirakçıları!

Əziz uşaqlar!

Sizi - Uşaqların V Ümumrespublika Forumunun iştirakçılarını, eləcə də ölkəmizin bütün uşaqlarını səmimi qəlbdən salamlayır, Ümumdünya Uşaqlar Günü münasibətilə hər birinizi təbrik edir, hamınıza cansağlığı və xoşbəxtlik arzulayıram.

Uşaqlar cəmiyyətin sabahıdır. Övladlarımızın milli dəyərlərə sadiq və yüksək mənəviyyatlı şəxsiyyət olaraq formalaşmalarının ölkəmizin tərəqqisi baxımından müstəsna əhəmiyyəti vardır. Uşaq hüquqlarının qorunması ilə bağlı Azərbaycan dövlətinin ardıcıl həyata keçirdiyi sosialyönümlü siyasət də bu məqsədə xidmət edir. Ötən Forumunuzda səsləndirilmiş bir çox məsələlər uşaqlarımızın hüquqlarının müdafiəsinin kompleks şəkildə təmin olunmasına yönələn “Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası”nda dolğun əksini tapmışdır.

Siz uşaqlar xoşbəxtsiniz ki, yeni əsrə və yeni minilliyə müstəqil dövlət olaraq qədəm qoymuş ölkəmizdə dünyaya göz açmısınız. Siz fəxr etməlisiniz ki, qalib xalqımızın şərəfli və qürurverici tarixinin şahidlərisiniz.

Vətən müharibəsində qazanılan Zəfərlə Azərbaycan Ordusu yalnız tarixi ədaləti deyil, həm də bir milyondan çox qaçqın və məcburi köçkün soydaşımızın 30 ildən artıq müddətdə pozulan hüquq və azadlıqlarını bərpa etdi, düşmən təxribatlarına qurban getmiş məsum övladlarımızın qisasını alaraq öz möhtəşəm gücünü və hərbi qüdrətini bütün dünyaya çatdırdı.

Bu gün Azərbaycan sürətli inkişaf yolundadır. Yurdumuzun ildən-ilə daha güclü, daha qüvvətli olması, eyni zamanda, sizin xoşbəxt və firavan yaşamağınızın rəhnidir. İndiki nəsil qüdrətli Azərbaycanı məhz sizə əmanət edəcəkdir. Odur ki, üzərinizə düşən məsuliyyəti daha dərindən dərk edərək daim əzmlə çalışmalı, Vətəni layiqincə təmsil etməlisiniz. İnanıram ki, siz mənən zəngin nəsil kimi azərbaycançılıq ruhunda böyüyərək boya-başa çatacaq, respublikamızın gələcək inkişafı və uğurlar qazanması naminə töhfələrinizi əsirgəməyəcəksiniz.

Əziz övladlar!

Bütün Azərbaycan uşaqlarını təmsil etməklə bu Forumda iştirakınız sizə göstərilən böyük etimadın təzahürüdür. Ümidvaram ki, Forum çərçivəsində aparacağınız müzakirələr ölkəmizdə uşaqlarla bağlı dövlət siyasətinin gerçəkləşdirilməsində yeni mərhələnin başlanğıcı olacaqdır.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 18 noyabr 2021-ci il*

---



## “Uşaq hüquqları aylığı”

### Paytaxt məktəblərində maarifləndirici tədbir, “açıq dərs” və seminarlar

Paytaxt məktəblərində “Uşaq hüquqları aylığı” ilə əlaqədar tədbirlər keçirilir. 20 oktyabr - 20 noyabr tarixlərini əhatə edən aylıq çərçivəsində uşaq hüquqları mövzusunda maarifləndirici tədbir, “açıq dərs” və seminarlar təşkil olunur.

“Uşaq hüquqları aylığı”nın təşkil olunmasının əsas məqsədi BMT-nin Uşaq Hüquqları Konvensiyasının qəbul olunmasının ildönümü, 20 noyabr-Ümumdünya Uşaqlar Günü ərəfəsində uşaqlara diqqətin daha da artırılması və uşaq hüquqlarının qorunması işinin yaxşılaşdırılmasından ibarətdir.

Tədbirlərdə şagirdlərə uşaq hüquqlarının yaranma tarixi, milli və beynəlxalq qanunvericilik, dövlət tərəfindən uşaq hüquqlarının müdafiəsi sahəsində görülən işlər barədə ətraflı məlumatlar verilir. Bildirilir ki, ölkə Prezidenti İlham Əliyevin 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nda əhalinin müxtəlif qruplarının, o cümlədən də uşaq hüquqlarının müdafiəsi ilə bağlı təsbit olunan müddəalar uğurla həyata keçirilir.

Bundan əlavə, Vətən müharibəsi dövründə Ermənistan tərəfinin Azərbaycanın mülki yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutması nəticəsində 10-dan çox uşağın həlak olması, 50 nəfərin yaralanması, bir çox uşağın isə valideynlərini itirmələri barədə məlumat verilir. Qeyd edilir ki, mülki obyektlərin hədəfə alınması, bir çox yaşayış evlərinin, təhsil, səhiyyə müəssisələrinin dağıdılması uşaqların təhsil, səhiyyə və digər hüquqlarının pozulmasına gətirib çıxarıb. Vurğulanır ki, uşaqlar hərbi münaqişələr zamanı heç bir halda hədəf obyektinə çevrilməməli və müharibənin fəsadlarından əziyyət çəkməməlidirlər. Bildirilir ki, Azərbaycanda uşaqlar dövlətin və cəmiyyətin daim diqqət mərkəzindədir və uşaq problemlərinin ardıcıl həlli ölkəmizdə bu sahədə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

Qeyd edək ki, təhsil müəssisələrində “Uşaq hüquqları aylığı” çərçivəsində tədbirlərin noyabrın 20-dək davam etdirilməsi nəzərdə tutulur.

# Uşaqların müasir standartlara uyğun keyfiyyətli təhsil alması prioritet istiqamətlərdəndir



## Azərbaycan uşaqlarının V Ümumrespublika Forumu keçirilib



Noyabrın 18-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, "Regional İnkişaf" İctimai Birliyinin və BMT-nin Uşaq Fondunun (UNICEF) birgə təşkilatçılığı ilə Azərbaycan Uşaqlarının V Ümumrespublika Forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan Forumda ölkəmizdə dövlət uşaq siyasətinə həsr olunan videoçarx nümayiş etdirilib.

Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Forum iştirakçılarına müraciətini oxuyub.

Tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Forumun xalqımız üçün çox möhtəşəm hadisənin bayram edildiyi günlərə - Vətən müharibəsində qazanılan Zəfərin bir illiyi ilə eyni vaxta təsadüf etdiyini vurğulayıb. "Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində Qarabağın işğaldan azad edilməsinin birinci ildönümünü böyük ruh yüksəkliyi ilə qeyd edirik. Bu günləri bizə yaşatdıqları üçün Prezident İlham Əliyevə, Ordumuza təşəkkürümüzü bildiririk. Ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizədə canlarını fəda etmiş şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyir, onları ehtiramla yad edir, qazilərə isə şəfa arzulayırıq", - deyə komitə sədri qeyd edib.

Vətən müharibəsində qazanılan Qələbəni, torpaqlarımızın işğaldan azad edilməsini Azərbaycan uşaqları üçün də yeni bir dönəmin başlanğıcı kimi qiymətləndirən B.Muradova onların hüquqlarının müdafiəsi işinin daha da gücləndirilməsi istiqamətində böyük imkanlar yarandığını bildirib.

Azərbaycan uşaqlarının ümumrespublika forumlarının 2009-cu ildən keçirildiyini xatırladan komitə sədri deyib ki, belə tədbirlər uşaq hüquqlarının qorunması, uşaqlarla bağlı siyasi və hüquqi qərarların qəbulu, qanunvericiliyin təkmilləşdirilməsi, dövlət proqramları və fəaliyyət planlarının hazırlanmasında, həyata keçirilməsində uşaqların fikirlərinin nəzərə alınması üçün mühüm əhəmiyyət daşıyır.

Bahar Muradova deyib: "Bu forumlar uşaqların müzakirələrdə iştirakının təmin edilməsində çox vacib platformaya çevrilib. Forumların təşkili dövlət orqanlarının, ictimaiyyət nümayəndələrinin, vətəndaş cəmiyyəti institutlarının, eləcə də KİV-lərin diqqətini uşaqların hüquq və azadlıqlarının qorunmasının zəruriliyinə cəlb edilməsi baxımından da əhəmiyyətlidir. Bu forumların maraqlı və fərqləndirici cəhətlərindən biri də onların uşaqlar tərəfindən idarə edilməsidir".

Bu il dövlət müstəqilliyinin bərpasının 30 illiyini qeyd edən Azərbaycanda əhalinin 26,2 faizinin, yəni, 2 milyon 636,8 min nəfərinin uşaqlar təşkil etdiyini diqqətə çatdıran Bahar Muradova dövlətimizin uşaqlarla bağlı yürütdüyü siyasət barədə danışaraq deyib: "Uşaqların sağlam ailə mühitində böyüməsi və tərbiyələnməsi, müasir standartlara uyğun keyfiyyətli təhsil alması, hər cür təzyiq və zorakı münasibətdən qorunması, xüsusilə həssas qrupdan olan uşaqlar üçün bütün imkanların təmin edilməsi dövlətimizin bu sahədə həyata keçirdiyi siyasətin prioritet istiqamətləridir. Müstəqilliyimizin və dövlətçiliyimizin xilaskarı, uşaqların sevimlisi olan ümummilli lider Heydər Əliyev tərəfindən 1990-cı illərdə əsası qoyulan bu siyasət uğurla davam etdirilir".





Komitə sədri Foruma hazırlıq mərhələləri barədə məlumat verərək deyib ki, uşaqlar üçün maarifləndirici tədbirlər, dövlət qurumlarının rəhbərləri və digər tanınmış şəxslərlə görüşlər, eyni zamanda, yay məktəbi təşkil edilib. Bundan əvvəl keçirilən ümumrespublika uşaq forumlarında əldə edilən təcrübə gələcək işlər üçün mühüm bazadır.

Daha sonra çıxış edən "Regional İnkişaf" İctimai Birliyi Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Leyla Tağıyeva qeyd edib ki, uşaqların fiziki, əqli və psixi sağlamlığı, onların hərtərəfli şəxsiyyət kimi böyüməsi xalqımızın və dövlətimizin gələcəyi üçün vacib məsələlərdəndir. Xoşbəxt gələcəyə zəmin yaratmaq üçün uşaqlara erkən yaşlardan ağıllı sərmayə qoyulmalı, onlar keyfiyyətli təhsil, səhiyyə, sosial və digər xidmətlərlə təmin olunmalıdır. Bu, aidiyyəti dövlət qurumları, vətəndaş cəmiyyəti institutları və valideynlərin birgə səylərinin artırılmasını tələb edir. Uşaqlarla bağlı beynəlxalq əhəmiyyətli günlərin dövlət səviyyəsində qeyd olunması onlara olan qayğı və diqqətin təzahürüdür. Bu Forum uşaq hüquqlarının, keyfiyyətli və inklüziv təhsilə, sosial və səhiyyə xidmətlərinə diqqəti yönəltmək baxımından olduqca vacibdir. Uşaqların firavan yaşayışının təmin edilməsi üçün onların hüquqlarının qorunması əsas şərtlərdən biridir. Ölkəmiz BMT-nin Uşaq Hüquqları Konvensiyasına qoşulmaqla, eləcə də uşaq hüquqları ilə bağlı milli qanunvericilik bazasını təkmilləşdirməklə uşaq hüquqlarının qorunması məsələsində öz qəti mövqeyini nümayiş etdirir.

Uşaqlara dövlət qayğısından danışan Leyla Tağıyeva bu baxımdan Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üzrə Strategiyasını xüsusi vurğulayaraq deyib: "Cəmiyyətin sosial, ictimai və mədəni inkişafı sahəsində dövlətin həyata keçirdiyi tədbirlərə daim dəstək olan Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi uşaqların sağlamlığı, onların sosial problemlərinin həlli, hamı üçün bərabər və keyfiyyətli təhsil imkanlarının artırılması, xüsusi qabiliyyətli uşaqların aşkara çıxarılması və onların davamlı inkişafının təmin edilməsi, valideyn himayəsindən məhrum olmuş sağlamlıq imkanları məhdud uşaqların bilik və bacarıqlarının artırılması, cəmiyyətə fəal inteqrasiyasının təmin edilməsi, aztəminatlı və digər əsas kateqoriyalardan olan uşaqlara maddi və mənəvi dəstəyin göstərilməsi və digər istiqamətlərdə davamlı olaraq müxtəlif layihələr və tədbirlər həyata keçirir".

UNICEF-in Azərbaycan nümayəndəliyinin rəhbərinin müavini Min Yuan tədbir iştirakçılarını Uşaqların V Ümumrespublika Forumu və 20 Noyabr - Ümumdünya Uşaq Günü münasibətilə təbrik edib. O bildirib ki, uşaqlar naminə və uşaqlar tərəfindən görülən işləri qeyd etmək üçün bu, xüsusi bir gündür. 20 noyabr BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının qəbul olunduğu tarixdir.

Min Yuan COVID-19 pandemiyasının uşaqların təhsil, təlim, asudə vaxtını mənalı keçirilməsinə mənfi təsirindən danışaraq qeyd edib: "Bəzi uşaqların bəlkə də onlayn dərslərə tam çıxışı olmayıb. Bəzi uşaqlar bu dövrdə özlərini tənha, çətin vəziyyətdə hiss ediblər. Pandemiya uşaqların sağlamlığına da təsir göstərib. Azərbaycanda pandemiyanın təsirlərini azaltmaq istiqamətində hökumət tərəfindən görülən tədbirlər təqdirəlayiqdir. Bu gün azərbaycanlı uşaqlar və gənclər arasında bu qədər enerjini və gücü görmək bizdə xoş təəssürat oyadır. Uşaqlara, onların gələcəyinə yatırılan sərmayə, eyni zamanda, Azərbaycanın gələcəyinə qoyulan sərmayədir".

Çıxışlardan sonra dövlət və hökumət rəsmiləri Forum iştirakçılarının uşaq hüquqları, təhsildə yeni standartlar, uşaqların internet təhlükəsizliyi, sağlamlığının qorunması, ətraf mühitin mühafizəsi, uşaqların şəxsiyyət kimi formalaşmasında ailə və cəmiyyət tandeminin rolu barədə suallarını cavablandırıblar.

Tədbir çərçivəsində iştirakçı uşaqların Türkiyə Respublikasından olan həmyaşıdları ilə videoformatda görüşü də keçirilib. Görüşdə iki qardaş xalq arasında birlik və həmrəyliyin əhəmiyyəti barədə fikirlər səsləndirilib.

Forumda Əlaqələndirmə Şurasının yeni tərkibi seçilib. Yeni seçilən Şura Azərbaycan uşaqları adından silahlı münaqişələrdən əziyyət çəkən uşaqların hüquqlarının müdafiəsi ilə bağlı dünya ictimaiyyəti və beynəlxalq təşkilatlara ünvanlanan müraciətin mətnini elan edib.

Sonra Azərbaycan uşaqları adından Prezident İlham Əliyev üçün hazırlanan hədiyyə Forumda nümayiş olunub. Hədiyyə Prezidentə təqdim edilməsi üçün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovaya verilib.

Sonda Forum iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul olunub.

Koronavirus pandemiyası ilə əlaqədar ölkədə tətbiq edilən karantin rejiminin qaydaları və Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələri nəzərə alınmaqla hibrid formatda təşkil olunan tədbirdə Azərbaycanın bütün şəhər və rayonlarından fəallıqları ilə seçilən, xüsusi bacarıq və qabiliyyətləri ilə fərqlənən, həmçinin yay məktəblərinin iştirakçısı olmuş, liderlik keyfiyyətlərinə malik 350-yə yaxın uşaq iştirak edib.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 38 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 380; 2017, № 4, maddə 672, № 5, maddə 1010, № 10, maddə 1918; 2018, № 11, maddə 2432, № 12 (II kitab), maddə 2741; 2019, № 4, maddələr 735, 762, № 8, maddə 1480; 2020, № 3, maddə 339, № 5, maddə 650; 2021, № 5, maddə 509) ilə təsdiq edilmiş "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası"nın 3-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

**"3. Peşə təhsili pilləsi üzrə təqaüdlərin təyin olunması və ödənilməsi**

3.1. Dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, peşə təhsili müəssisələrinin əyani təhsilalma forması üzrə təhsil alan tələbələrinə təqaüd onların aralıq qiymətləndirmə (yarımil) nəticələrinə görə verilir.

3.2. Hər tədris ili üçün peşə təhsili müəssisələrində ixtisaslar üzrə təqaüdlərin sayı həmin ixtisaslar üzrə dövlət sifarişi və dövlət hesabına təhsilalanların sayına bərabər qəbul edilir.

3.3. Hər bir ixtisas üzrə təqaüdlərin sayı nəzərə alınmaqla, aralıq qiymətləndirmənin yekun nəticələrinə əsasən ən yüksəkdən başlayan sıralamaya uyğun növbəti yarımildə təqaüd alacaq tələbələrin siyahısı müəyyən edilir.

3.4. Təqaüd almaq hüququnu qazanmış tələbələrə təqaüdlər yarımil üzrə (birinci tədris ilinin birinci yarımili istisna olmaqla) aralıq qiymətləndirmənin yekun nəticələrinə əsasən modullar (fənlər) üzrə göstəricilərinə görə aşağıdakı kimi müəyyənləşdirilir:

3.4.1. ilk və texniki peşə təhsili səviyyələri üzrə:

3.4.1.1. modullar (fənlər) üzrə göstəriciləri 5 ballıq qiymət şkalasına (2, 3, 4, 5) əsasən "5" olan tələbələrə "əlaçı" təqaüdü;

3.4.1.2. modullar (fənlər) üzrə göstəriciləri 5 ballıq qiymət şkalasına (2, 3, 4, 5) əsasən "4" və "5" olan tələbələrə "həvəsləndirici" təqaüdü (bu halda ən azı bir moduldan (fəndən) akademik göstəricisi "5" olmalıdır);

3.4.1.3. modullar (fənlər) üzrə göstəriciləri 5 ballıq qiymət şkalasına (2, 3, 4, 5) əsasən "3" - "5" olan tələbələrə "adi" təqaüd verilir;

3.4.2. yüksək texniki peşə təhsili səviyyəsi üzrə:

3.4.2.1. modullar (fənlər) üzrə göstəriciləri çoxballı sistemə (0-100 bal) əsasən 91-100 bal olan tələbələrə "əlaçı" təqaüdü;

3.4.2.2. modullar (fənlər) üzrə göstəriciləri çoxballı sistemə (0-100 bal) əsasən 71-100 bal olan tələbələrə "həvəsləndirici" təqaüdü (bu halda ən azı bir moduldan (fəndən) akademik göstəricisi 91 baldan yuxarı olmalıdır);

3.4.2.3. modullar (fənlər) üzrə göstəriciləri çoxballı sistemə (0-100 bal) əsasən 51-100 bal olan tələbələrə "adi" təqaüd verilir.

3.5. Hər bir tədris ili üçün ixtisas üzrə təqaüd almaq hüququ olan tələbələrin siyahısında sıralamada sonuncu yerə bir neçə iddiaçı olduğu halda, birinci tədris ilinin ikinci yarımilində ümumi orta və tam orta təhsil səviyyələri üzrə məzunların buraxılış imtahanında əldə etdiyi nəticə və ya orta ixtisas təhsili müəssisələrinə ümumi orta və tam orta təhsil bazasında qəbul imtahanından topladığı bal, sonrakı yarımillərdə isə əvvəlki yarımildəki aralıq qiymətləndirmənin nəticəsi yüksək olan tələbəyə üstünlük verilir.

3.6. Təqaüd almaq hüququ olan tələbələrin siyahısı müəyyənləşdirilərkən, təqaüdlərin müəyyən edilmiş sayı müvəffəq qiymət alanların sayından çox olduğu halda, qalan təqaüd yerləri pedaqoji şuranın qərarı ilə digər ixtisaslar üzrə təhsil alan və həmin yarımildə aralıq qiymətləndirmə üzrə yekun nəticəsi yüksək olan tələbələrə növbəti yarımilədək verilir.

3.7. Aralıq qiymətləndirmənin yekun nəticələrinə görə çoxballı sistem üzrə 50 baldan və ya 5 ballıq qiymət şkalası üzrə "3"-dən aşağı qiymət almış peşə təhsili müəssisələrinin tələbələrinə təqaüdün verilməsi dayandırılır. Akademik borclar ləğv edilən gündən təqaüdün verilməsi bərpa olunur.

3.8. Xəstəliyə və digər üzrlü səbəblərə görə aralıq qiymətləndirmədə iştirak etməyən tələbələrə akademik borcların ləğvi üçün ayrılan müddətin sonunadək təqaüdün verilməsi davam etdirilir.

3.9. Akademik borca görə təkrar kursda saxlanılan və təhsillərini müvəqqəti olaraq dayandıran tələbələrə təkrar təhsil ili dövründə təqaüd ödənilmir.

3.10. Peşə təhsili pilləsinin ilk və texniki peşə təhsili səviyyələrinə dövlət vəsaiti hesabına qəbul olunan tələbələrə müvafiq fənlər üzrə attestat qiymətlərinin orta göstəricisi "4,5" və daha çox olduqda, birinci tədris ilinin birinci yarımilində "əlaçı", digər halda isə "adi" təqaüd verilir.

3.11. Tam orta təhsil bazasından qəbul olunan və ilk peşə təhsili səviyyəsi üzrə təhsil alan tələbələrə müvafiq fənlər üzrə attestat qiymətlərinin orta göstəricisi "4,5" və daha çox olduqda, birinci tədris ilinin birinci yarımilində "əlaçı", digər halda isə "adi" təqaüd verilir.

3.12. Peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsi üzrə:

3.12.1. ümumi orta və tam orta təhsil səviyyələri üzrə məzunların buraxılış imtahanında əldə etdikləri nəticələrə əsasən peşə təhsili müəssisələrinə qəbul olunan tələbələrə həmin imtahanlarda topladıqları qiymətlərin orta göstəricisi "4,5" və daha çox olduqda, birinci tədris ilinin birinci yarımilində "əlaçı", digər halda isə "adi" təqaüd verilir;

3.12.2. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən orta ixtisas təhsili müəssisələrinə ümumi orta və tam orta təhsil bazasında qəbul imtahanında əldə etdikləri nəticələrə əsasən peşə təhsili müəssisələrinə qəbul olunan və imtahan verilən fənlər üzrə müəyyən edilmiş maksimal balın 85 faizini və daha çoxunu toplayan tələbələrə birinci tədris ilinin birinci yarımilində "əlaçı", digərlərinə isə "adi" təqaüd verilir.

3.13. Təkrar olaraq eyni peşə təhsili səviyyəsində təhsil alan tələbələrə dövlət hesabına təqaüd verilmir.".

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

*Bakı şəhəri, 13 noyabr 2021-ci il*

# "Zəfər yolu" inşa müsabiqəsinin qaliblərinin təltif edilməsi barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Ölkənin işğal altında olan ərazilərinin azad edilməsində dövlətimizin əldə etdiyi nailiyyətlərin təbliğinin aparılması, Azərbaycan Ordusunun tarixi qələbəsi barədə şagirdlərin məlumatlılıq səviyyəsinin artırılması, habelə Zəfər Gününün ölkənin təhsil müəssisələrində yüksək səviyyədə qeyd olunmasını təmin etmək məqsədi ilə keçirilmiş "Zəfər yolu" inşa müsabiqəsi qaliblərinin təltif olunması ilə əlaqədar "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Aşağıda adları göstərilən şagirdlər I, II və III dərəcəli diplomlar ilə təltif edilsinlər:

**I dərəcəli diploma**

1. Mürsəliyeva Aişə Sübhi qızı - İsmayıllı şəhəri 5 nömrəli tam orta məktəbin VIII sinif şagirdi
2. Fərzizadə Gülnur Zahir qızı - Yardımlı şəhəri M.F.Axundov adına 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi
3. Muxtarova Səmra Nicat qızı - Kürdəmir rayonu Mollakənd kənd Q.Sadıqov adına tam orta məktəbinin IX sinif şagirdi
4. Şirinova Şəfa Səfalan qızı - Gəncə şəhəri 25 nömrəli tam orta məktəbin VIII sinif şagirdi
5. Xəlilova Ləman Zamiq qızı - Xaçmaz rayonu Köhnə Xaçmaz kənd Ə.Tahirov adına tam orta məktəbin IX sinif şagirdi
6. Səmədova Fəridə Əli qızı - Şuşa rayonu 9 nömrəli tam orta məktəbin VIII sinif şagirdi
7. Rəcəbli Zeynəb İlham qızı - Laçın rayonu Güləbird kənd R.Hümbətov adına tam orta məktəbin X sinif şagirdi

**II dərəcəli diploma**

1. Sofiyev Məhəmməd Hacımurad oğlu - Qax şəhəri N.Allahverdiyev adına 2 nömrəli məktəb-liseyin XI sinif şagirdi
2. Əhmədova Samirə Asif qızı - İmişli rayonu Qaradonlu kənd M.Şirinov adına tam orta məktəbin IX sinif şagirdi
3. Məmmədova Dərya Fikrət qızı - Şabran şəhəri R.Yusifov adına 2 nömrəli texniki təmayüllü tam orta məktəb-liseyin VIII sinif şagirdi
4. İbrahimova Səbinə Hamlet qızı - Ucar rayonu Qaradağlı kənd tam orta məktəbinin XI sinif şagirdi
5. Ülvi Cavanşir Zaur oğlu - XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzinin IX sinif şagirdi
6. Eyubova Mələk Xamis qızı - Şamaxı rayonu Şəhriyar qəsəbə A.Babaşov adına tam orta məktəbin VIII sinif şagirdi
7. Alcanova Mariya Yaqut qızı - Oğuz şəhəri 3 nömrəli məktəb-liseyin X sinif şagirdi
8. Babayeva Ayla Müslüm qızı - Xocavənd rayonu 2 nömrəli tam orta məktəbin X sinif şagirdi

**III dərəcəli diploma**

1. Həsənli Fidan Rəşad qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Heydər Əliyev adına liseyin VIII sinif şagirdi
2. Xubanova Süsən Kənan qızı - Bakı şəhəri 45 nömrəli tam orta məktəbin VIII sinif şagirdi
3. Əliheydərova Yeganə Teyyub qızı - Bakı şəhəri 18 nömrəli tam orta məktəbin X sinif şagirdi
4. Hacıyev Hacı Abakar oğlu - Zaqatala rayonu Akademik Zərifə Əliyeva adına Texniki fənlər təmayüllü liseyin VIII sinif şagirdi
5. Nağıyeva Çinarə Qulu qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki A.S.Makarenko adına Humanitar fənlər təmayüllü Respublika gimnaziyasının X sinif şagirdi
6. Şahbazzadə İlqarə Mahir qızı - Masallı rayonu Bədəlan kənd tam orta məktəbinin XI sinif şagirdi
7. Əlizamanlı Mətin Kərəm oğlu - Füzuli rayonu 7 nömrəli tam orta məktəbin X sinif şagirdi
8. Süleymanlı Tünzalə Elvin qızı - Hacıqabul şəhəri 4 nömrəli tam orta məktəbin X sinif şagirdi
9. Abbasova Fidan Əli qızı - Samux şəhəri M.Ə.Sabir adına 1 nömrəli məktəb-liseyin X sinif şagirdi
10. Əliyeva Şəhanə İbrahim qızı - Gəncə şəhəri 25 nömrəli tam orta məktəbin X sinif şagirdi
11. Əzizova Kəmalə Azad qızı - Astara rayonu Ərçivan qəsəbə N.Kərimov adına 3 nömrəli tam orta məktəbin XI sinif şagirdi
12. Qafarova Xalidə Kamran qızı - Təhsil Nazirliyinin birbaşa tabeliyindəki 132-134 nömrəli Təhsil Kompleksinin XI sinif şagirdi
13. Mustafayeva Əsmər İrşad qızı - Mingəçevir şəhəri Təbiət, riyaziyyat və humanitar təmayüllü liseyin XI sinif şagirdi
14. Babayeva Vəfa Elman qızı - Ağdam rayonu 36 nömrəli tam orta məktəbin XI sinif şagirdi
15. Qəmbərov İbrahim Namiq oğlu - Ağdaş şəhəri M.Şeyxzadə adına internat tipli texniki, humanitar və təbiət fənləri təmayüllü gimnaziyanın X sinif şagirdi

**2.** İctimaiyyətlə əlaqələr sektoru (Cəsarət Valehov) əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**3.** İnformasiya və vətəndaşlara xidmət şöbəsi (Rəşad Xanlarov) əmrin müvafiq struktur bölmələrə çatdırılmasını təmin etsin.

**4.** Əmrin icrasına nəzarət nazir müavini Firudin Qurbanova həvalə olunsun.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*16 noyabr 2021-ci il*

# Azərbaycan Uşaqlarının V Ümumrespublika Forum iştirakçılarının bir qrupu ilə görüş

Noyabrın 15-də təhsil naziri Emin Əmrullayev V Azərbaycan Uşaqlarının V Ümumrespublika Forumunda iştirak edəcək uşaqlardan bir qrupu ilə görüşüb.

2009-cu ildən təşkil edilən və artıq ənənə halını alan Ümumrespublika Uşaq Forumlarının əhəmiyyətinə toxunan Emin Əmrullayev görüş zamanı uşaqların inkişafında təhsilin önəmindən danışıb.

Təhsil hüququnun təmin edilməsi sahəsində dövlət siyasətinin əsas prinsiplərinə toxunan nazir görüş iştirakçılarının bu mövzuda suallarını cavablandırıb.



# Təhsil nazirinin növbəti videoqəbulu keçiriləcək

Təhsil naziri Emin Əmrullayev 26 noyabr 2021-ci il saat 16:00-da Yevlax, Bərdə, Tərtər, Ağdam, Füzuli, Xocavənd, Samux rayonları və Naftalan, Mingəçevir şəhərlərinin sakinlərini videobağlantı vasitəsilə qəbul edəcək. Qəbulda həmin rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak edə bilərlər.

Qeyd olunan rayonların sakinləri 16-24 noyabr (saat 18:00-dək) 2021-ci il tarixlərində Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146-1 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng etməklə və ya elektron müraciət *(https://portal.edu.az; https://edu.gov.az/az/contact)* edərək videoqəbula yazıla bilərlər.

Vətəndaşlar videoqəbulun keçirildiyi otağa qəbula yazılanlar siyahısı və şəxsiyyəti təsdiq edən sənədlər əsasında buraxılacaqlar. Qəbulun keçirildiyi yerdə müvafiq sanitariya-gigiyena normalarına əməl olunmalıdır. Videoqəbulda bir müraciətlə bağlı eyni vaxtda birdən artıq şəxsin iştirakına icazə verilmir.

# Malayziya ilə ali təhsil sahəsində əməkdaşlıq imkanları

## Onlayn tanışlıq görüşündə birgə müzakirələr aparılıb



**Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin və Azərbaycanın Malayziyadakı səfirliyinin birgə təşkilatçılığı ilə Malayziyanın "Universiti Teknologi MARA" (UiTM) ali təhsil müəssisəsi ilə Azərbaycanın ali təhsil müəssisələri arasında mümkün əməkdaşlıq imkanlarının müzakirəsi məqsədi ilə ilk onlayn tanışlıq görüşü baş tutub.**

Onlayn görüşdə Azərbaycan tərəfindən ölkəmizin Malayziyadakı fövqəladə və səlahiyyətli səfiri İrfan Davudov, Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq, Elm, ali və orta ixtisas təhsili şöbəsinin əməkdaşları, Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Bakı Mühəndislik Universiteti və Bakı Dövlət Universitetinin müvafiq sahə üzrə prorektorları, Malayziya tərəfindən isə UiTM-in vitse-kansleri Prof. Ts. Dr. Hajah Roziah Mohd Janor, Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Dr. Hajah Zainab Haji Mohd Noor, dekanlar və digər əməkdaşlar iştirak ediblər.

Görüşdə hər iki tərəf təqdimatla çıxış edib, tibb, bərpa olunan enerji, hüquq və digər ixtisaslar üzrə mümkün əməkdaşlıq imkanlarını, o cümlədən ikili diplom proqramlarının təsis edilməsi, tələbə-müəllim heyətinin mübadiləsini və birgə elmi-tədqiqat layihələrinin həyata keçirilməsini müzakirə ediblər.

# Azərbaycan Dövlət Pedaqoji Universitetində "Zəfər Günü" stendi

Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) filologiya fakültəsinin foyesində silsilə tədbirlərin davamı olaraq Vətən müharibəsindəki tarixi qələbəmizi özündə əks etdirən möhtəşəm "Zəfər Günü" stendinin açılışı olub.

Açılışda universitetin rektoru, professor Cəfər Cəfərov, elm və innovasiyalar üzrə prorektor, professor Asəf Zamanov, beynəlxalq əlaqələr üzrə prorektor, filologiya fakültəsinin dekanı vəzifəsini icra edən professor Mahirə Hüseynova, Tədris departamentinin müdiri, dosent Sənan Əliyev, habelə müəllim və tələbə heyəti iştirak edib.

Əvvəlcə layihənin rəhbəri professor Mahirə Hüseynova qonaqlara stend haqqında məlumat verib.

Stenddə işğaldan azad edilmiş rayonların tarixi abidələri, işğal və Zəfər günlərini əks etdirən tarixlər, işğaldan azad olunan ərazilərin xəritəsi, anım və Zəfər günlərinin, Vətən müharibəsinin simvolları olan Xarıbülbül və Dəmir yumruq, həmçinin Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sərkərdə təsviri öz əksini tapır.



Açılışda çıxış edən professor C.Cəfərov nümunəvi addıma görə öz təşəkkürünü bildirib, bu tip işlərin Zəfər tariximizin təbliğində daşıdığı önəmi vurğulayıb.




# Beynəlxalq olimpiadadan 4 medal

8-11 noyabr 2021-ci il tarixlərində Özbəkistanda Əl-Fərqani adına Beynəlxalq Fizika Olimpiadası *(https://en.iafpho2021.uz)* keçirilib.

Rusiya, Türkiyə, Tayland, Malayziya kimi 19 fərqli ölkədən şagirdlərin qatıldığı olimpiadada Azərbaycanı təmsil edən məktəblilərimiz uğurlu nəticə göstərərək 4 medal əldə edib. Belə ki, Təhsil Nazirliyinin tabeliyindəki Bakı Avropa liseyinin XI sinif şagirdi Fəxriyyə Məmmədova və Akademik Zərifə Əliyeva adına liseyin XI sinif şagirdi Eşqin Alıyev gümüş, nazirliyin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi Rüfət Məmmədov və Bakı şəhəri 220 nömrəli məktəb-liseyin XI sinif şagirdi Ramin Qasımlı bürünc medal qazanıblar.

Məktəblilərimizi təbrik edir, uğurlar arzulayırıq.

# “Qazi müəllimlər”

## Kitabın təqdimat mərasimi keçirilib

**Bakı Şəhəri üzrə Təhsil İdarəsi və “Qafqazinfo” xəbər portalının birgə layihəsi əsasında ərsəyə gələn “Qazi müəllimlər” kitabının təqdimat mərasimi keçirilib. Mərasimdə təhsil nazirinin müşaviri Elnur Nəsibov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdiri Mehriban Vəliyeva və digər qonaqlar iştirak ediblər.**






Tədbir Dövlət Himninin səsləndirilməsi və Vətən şəhidlərinin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Mərasimdə giriş nitqi ilə çıxış edən BŞTİ-nin müdiri Mehriban Vəliyeva Vətən müharibəsi iştirakçısı olan müəllimlərin həyat və fəaliyyətini, döyüş yolunu geniş ictimaiyyətə çatdırmağın, günümüzün qəhrəmanlarını təbliğ etməyin vacibliyinə toxunaraq bildirib ki, bu baxımdan “Qazi müəllimlər” kitabı millətin gələcəyi olan uşaqlara bilik və bacarıqlar aşılayan, Vətən üçün layiqli şəxsiyyət yetişdirən müəllim obrazını fərqli tərəfdən təqdim etmək imkanı yaradır.

Mehriban Vəliyeva kitabın təhsilalanlar və təhsilverənlər, eləcə də geniş oxucu auditoriyası üçün məktəb divarları arasında fədakar əməyi ilə seçilməklə yanaşı, həm də cəbhədə, soyuq səngərlərdə Vətən savaşında şücaət göstərən müəllimlərimizi tanımaq, onların nümunəvi fəaliyyətinin öyrənilməsi baxımından istinad mənbəyi olacağını qeyd edib.

Təhsil nazirinin müşaviri Elnur Nəsibov çıxışında təhsil işçilərinin də Vətən müharibəsində xalqımızın hər bir nümayəndəsi kimi Ali Baş Komandanın çağırışına qoşulduğunu, yüzlərlə müəllim və digər təhsil işçilərinin ön cəbhəyə atılaraq düşmənə layiqli dərs verdiyini diqqətə çatdırıb. Elnur Nəsibov “Qazi müəllimlər” kitabını Qarabağ savaşından üzüağ çıxan, zəfər tarixinə öz imzasını atan müəllimlərə olan minnətdarlıq duyğusunun ifadəsi kimi dəyərləndirib və bildirib ki, Təhsil Nazirliyinin prioritetləri sırasında daha vətənpərvər və yüksək bilikli gəncliyin yetişdirilməsi əsas yerlərdən birini tutur. Bu baxımdan qazi müəllimlərin təbliğ olunması mühüm əhəmiyyət kəsb edir.

Mərasimdə çıxış edən “Qafqazinfo” xəbər portalının baş direktoru Elbrus Ərud, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid, “Nar” şirkətinin İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri Əziz Axundov kitabı Vətən müharibəsi qaziləri ilə bağlı hazırlanmış ilk nümunələrdən biri olaraq yüksək dəyərləndirib, qəhrəman müəllimlərə həsr olunan kitabın gələcək nəsillərin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayacağına əminlik ifadə ediblər.

Daha sonra Vətən müharibəsində Şanlı Zəfərin qazanılmasında iştirak edən, döyüş meydanındakı qəhrəmanlıqları ilə vətənpərvərlik dərsi keçən qazi müəllim, Bakı şəhəri 221 nömrəli tam orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Bədəl Hüseynov “Qazi müəllimlər” kitabını onlara verilən dəyərin ən parlaq nümunələrindən biri kimi qiymətləndirib.

Mərasimin sonunda BŞTİ-nin nəzdindəki Uşaq-Gənclər İnkişaf Mərkəzinin xorunun ifasında “Zəfər mahnısı” səsləndirilib.

## Təhsil Nazirliyinin MƏLUMATI

Payız-qış mövsümü ilə əlaqədar noyabrın 1-dən respublikanın dağ və dağətəyi ərazilərində, 15-dən isə digər bölgələrdə yerləşən ümumi təhsil müəssisələrinin istiliklə təmin olunması prosesinə başlanılıb.

Ölkə ərazisində ümumtəhsil məktəblərinin istiliklə təminatında yarana biləcək məsələlərin araşdırılması və həlli üçün Təhsil Nazirliyində operativ informasiya qrupu yaradılıb. Bu qrup məktəblərin istiliklə təchizatında qeydə alınan məsələlərlə məşğul olacaq.

Nazirliyin 146-1 və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin 146-0 Çağrı Mərkəzləri ilə əlaqə yaratmaqla və yaxud rəsmi “Whatsapp” xidmətinə (051 206 78 48) yazmaqla operativ qruplara müraciətləri yönləndirmək mümkündür.

Qeyd edək ki, ölkə ərazisində fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin 62 faizində istilik mərkəzləşdirilmiş qaydada, digər hissəsində isə müxtəlif vasitələrlə (odun, dizel, elektrik radiatoru) təmin olunur.

## Kenquru Beynəlxalq Riyaziyyat Müsabiqəsi

Noyabrın 14-də II-X sinif şagirdləri arasında Kenquru Beynəlxalq Riyaziyyat Müsabiqəsi keçirilib.

Təhsil İnstitutunun təşkilatçılığı ilə 106 mərkəzdə keçirilən müsabiqənin nəticələri noyabrın 21-dək *ttm.edu.az* saytında yerləşdiriləcək. Müsabiqədə iştirak üçün 14 minə yaxın şagird qeydiyyatdan keçib.

Qeyd edək ki, sözügedən müsabiqə hər il mərkəzi Fransa olan Sərhədsiz Kenquru Assosiasiyasının razılığı ilə dünyanın 80-dən çox ölkəsində təşkil olunur. Müsabiqənin keçirilməsində əsas məqsəd ümumi təhsil müəssisələrinin II-X sinif şagirdlərinə riyaziyyat fənni üzrə biliklərini yoxlamağa imkan yaratmaqdır. Nəticələrə əsasən, I, II və III yerləri tutmuş şagirdlər diplom və medal ilə təltif ediləcək, digərlərinə isə iştirak sertifikatı təqdim olunacaq.

## Təhsil Nazirliyi yanında İctimai Şuraya seçkilər keçiriləcək

Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında İctimai Şuranın fəaliyyətinin təmin edilməsi ilə əlaqədar yaradılmış Seçki Komissiyasının sonuncu onlayn iclası baş tutub. İctimai Şuranın üzvlüyünə seçilmək məqsədilə namizədlər tərəfindən təqdim edilmiş sənədlər Seçki Komissiyası tərəfindən qiymətləndirilib, müəyyən edilmiş qaydalara uyğun təqdim edilmiş və adları siyahıda göstərilən namizədlərin müraciətləri qeydə alınıb:

### Namizədlərin siyahısı

*(https://edu.gov.az/uploads/news/2021/11/ictimai-shuraya-namizedlerin-siyahisi.pdf)*

Məlumat üçün bildiririk ki, İctimai Şuraya üzvlərin seçilməsi barədə vətəndaş cəmiyyəti institutlarının bərabər sayda təmsilçilərindən ibarət birgə yığıncaq 23 noyabr 2021-ci il saat 14:00-da, Nizami küçəsi 183 ünvanında yerləşən Azərbaycan-Fransız Universitetinin (UFAZ) akt zalında keçiriləcəkdir. Nəzərinizə çatdırırıq ki, Təhsil Nazirliyi yanında İctimai Şura üzvlərinin say həddi 9 nəfər müəyyən edilib.

Qeyd edək ki, Təhsil Nazirliyi yanında İctimai Şuraya üzvlüyə namizədlərə, seçicilərə dair tələblər və onların qeydiyyatı barədə elana əsasən 1-28 oktyabr tarixlərində davam edən sənəd qəbulu prosesi ərzində seçici kimi qeydiyyata alınmaq üçün ümumilikdə 167 müraciət daxil olub. Müraciət edən 60 vətəndaş cəmiyyəti institutu təmsilçilərinin sənədləri müvafiq tələblərə uyğun olduğu üçün müraciətlərə müsbət rəy verilərək qeydə alınıb:

### Seçicilərə dair tələblərlə bu linkə daxil olaraq tanış olmaq mümkündür

*(https://edu.gov.az/az/announcements/tehsil-nazirliyi-yaninda-ictimai-suraya-uzvluye-namizedlere-secicilere-dair-telebler-ve-onlarin-qeydiyyati-barede-elan)*

Seçkilərin nəticələri barədə ictimaiyyətə məlumat veriləcək.

## Pakistanda 2021-2022-ci tədris ilində təhsil imkanı

Pakistan Texniki Dəstək Proqramı çərçivəsində 2021-2022-ci tədris ili üzrə təqaüd proqramı elan edilib.

Bakalavriat və doktorantura səviyyələri üzrə elan edilən proqram çərçivəsində təhsil almaq üçün noyabrın 20-dək müraciət etmək mümkündür.

Təqaüd proqramı ilə bağlı ətraflı məlumatla müvafiq elan *(http://htp.edu.az/uploads/fileuploads/2021/11/d38fe420b96945b6a3b59fcb73db600c.pdf)* vasitəsilə tanış ola bilərsiniz.

## 2022-2023-cü tədris ili üzrə Macarıstanda təhsil təqaüd proqramı

Macarıstan 2022-2023-cü tədris ili üçün təqaüd proqramı elan edir.

Təqaüd proqramı Təhsil Nazirliyi ilə Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyi arasında 6 yanvar 2021-ci il tarixində imzalanmış 2021-2023-cü illər üçün “Stipendium Hungaricum” proqramı çərçivəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumuna əsasən həyata keçirilir. Proqram Azərbaycan vətəndaşlarına müəyyən olunmuş ixtisaslar üzrə Macarıstanda təqaüd hesabına təhsil almaq imkanı yaradır.

Təqaüd proqramına sənəd qəbulu 15 yanvar 2022-ci il saat 23:59-a kimi aparılacaq.

Tələbələrin təqaüd proqramına qəbulu ilə bağlı Macarıstan tərəfinin (TPF) yekun qərarının 2022-ci ilin iyun-iyul ayları ərzində təqdim olunması gözlənilir.

Təqaüd proqramı çərçivəsində təhsilə dair əlavə məlumatlarla elan *(http://htp.edu.az/uploads/fileuploads/2021/11/c0e50ed10a424c09a4363394690910ac.pdf)* vasitəsilə tanış olmağınız mümkündür.



# STEM təhsil modeli

**Modern təhsil sisteminin inkişaf tendensiyasıməktəbəqədər təhsilə zamanın dəyişən tələblərinə uyğun tələbyönümlük prinsipi əsasında, innovativ yönümdə yanaşmanı aktuallaşdırır. Bu baxımdan, qeyd etmək lazımdır ki, son illər respublikamızda təhsilin digər pillələrində olduğu kimi, məktəbəqədər təhsil pilləsində də keyfiyyətin yüksəldilməsi istiqamətində aparılan davamlı islahatlar, əhəmiyyətli dəyişikliklər innovativ yanaşmaların təzahürü kimi təhsilin məzmununu yeniləşdirməklə, cəmiyyətin dəyişən ehtiyac və tələblərinə xidmət edir.**

- **STEM modeli Məktəbəqədər təhsilin kurikulumunun *tələbyönümlülük* prinsipinə əsasən təlim prosesini əhəmiyyətli dərəcədə fəallaşdırır və uşaqların yaradıcı fəaliyyəti üçün geniş şərait yaradır;**
- **STEM uşaqların müstəqil fəaliyyətinin təşkilinə xidmət etməklə sərbəst araşdırma aparmalarına, problemlərin həlli yollarını bir neçə cəhddən sonra tapmalarına şərait yaradaraq, onlarda özünəinam və təşəbbüskarlıq formalaşdırır;**
- **Məktəbəqədər təhsilin kurikulumunun *nəticəyönümlülük* prinsipinə əsasən tədqiqatçı qismində çıxış edən uşaqların təcrübi potensiallarının artması onların biliklərinin bacarıqlarında kompetensiyaya çevrilməsinə şərait yaradır;**
- **STEM inkişafetdirici mühit yaradaraq uşaqların birgə fəaliyyətini təmin edir;**
- **pozitiv atmosferdə təlim motivini artıraraq uşaqlara stimul verir və s.**

## Müasir məktəbəqədər təhsilin inkişaf göstəricisi kimi



**Kifayət MƏMMƏDOVA,**

*Azərbaycan Respublikası Təhsil İnstitutunun baş mütəxəssisi*

Məktəbəqədər təhsilin məzmununun ümumbəşəri mövqedən yeniləşdirilməsi və dünya təhsil sisteminə inteqrasiya olunması bu sahədə yeni texnologiyalardan, təhsil modellərindən istifadəni zəruri məsələlərdən biri kimi qarşıya qoyur ki, bütün bunlar da özünü məktəbəqədər təhsilin kurikulumunda geniş formada əks etdirir. Məktəbəqədər təhsildə yeni təlim texnologiyalarından istifadə məktəbəqədər yaşlı uşaqların gələcək həyata hazırlanmasında, uşaq şəxsiyyətinin formalaşmasında, hərtərəfli inkişafında, uşaqların sərbəst fəaliyyətində, intellektual potensialının üzə çıxarılmasında müstəsna əhəmiyyətə malikdir. Texnologiyaların sistemli tətbiqi ilə uşaqların müstəqil fəaliyyət, fikirlərini sərbəst ifadə etmək, tədqiqatçılıq, koqnitiv, kommunikativ və s. kimi bacarıqlara yiyələnmələrində STEM təhsil modelinin xüsusi yeri vardır. İngilis dilində “Science”, “Technology”, “Engeenering” və “Math” sözlərinin baş hərflərinin birləşməsi olan STEM “Elm”, “Texnologiya”, “Mühəndislik” və “Riyaziyyat” sözlərindən yaranmış və sadalanan elm sahələrinin inteqrativ tətbiqini reallaşdıran innovativ təhsil modelidir. Bu təhsil modelinə uyğun olaraq məktəbəqədər təhsilin kurikulumunun inkişaf sahələrinin inteqrasiya yolu ilə məzmun standartlarının reallaşması məktəbəqədər yaşlı uşaqların (3-6 yaş) müxtəlif fəaliyyətlər zamanı biliklərini elmi, texnoloji, konstruksiya, məntiqi və elementar riyazi bacarıqlarında müstəqil nümayiş etdirmələrinə geniş imkanlar yaradır. Bu zaman uşaqların obyektiv aləmdə mövcud olan cism və hadisələri daha yaxından görüb, dərk etməsi, texnologiya, mühəndislik (tikinti-quraşdırma) sahəsində yiyələndikləri bilik və bacarıqlarının səviyyəsi daha aydın görünür.

Bu gün respublikamızda məktəbəqədər təhsil sahəsində gedən uğurlu irəliləyişin tez-tez dəyişən sosial mühitdə uşaq şəxsiyyətinin, intellektinin, özünüinkişaf və özünütənzimləmə mexanizmlərinin formalaşmasına təkan verməsi STEM modelinin tətbiqi zəruriliyini aşağıdakı faktorlarla izah edir:

- STEM modeli Məktəbəqədər təhsilin kurikulumunun *tələbyönümlülük* prinsipinə əsasən təlim prosesini əhəmiyyətli dərəcədə fəallaşdırır və uşaqların yaradıcı fəaliyyəti üçün geniş şərait yaradır;
- STEM uşaqların müstəqil fəaliyyətinin təşkilinə xidmət etməklə sərbəst araşdırma aparmalarına, problemlərin həlli yollarını bir neçə cəhddən sonra tapmalarına şərait yaradaraq, onlarda özünəinam və təşəbbüskarlıq formalaşdırır;
- Məktəbəqədər təhsilin kurikulumunun *nəticəyönümlülük* prinsipinə əsasən tədqiqatçı qismində çıxış edən uşaqların təcrübi potensiallarının artması onların biliklərinin bacarıqlarında kompetensiyaya çevrilməsinə şərait yaradır;
- STEM inkişafetdirici mühit yaradaraq uşaqların birgə fəaliyyətini təmin edir;
- pozitiv atmosferdə təlim motivini artıraraq uşaqlara stimul verir və s.

Məktəbəqədər təhsil kurikulumunun təlimin innovativ texnologiyalarla təşkilində diqqətin konkret biliklərə deyil, biliklərin bacarıqlara çevrilməsinə yönəltməsi uşaqları müstəqil, yaradıcı şəxsiyyət kimi inkişaf etdirməklə, onlarda ünsiyyət və özünüdərketmə, mühakimə yürütmə, nəticəyə gəlmə, məntiqi təhlil, təsnifat aparma və s. kimi keyfiyyətlər formalaşdırır. Bu baxımdan, STEM modelinin tətbiqi də uşaqların tədqiqat fəaliyyətlərini formalaşdıraraq, onlarda öyrənməyə maraq və məhəbbət hissi, stimullaşma yaratmaqla məktəbəqədər təhsildə differensiallaşma və fərdiləşmənin, demokratikləşmənin təmin olunmasına şərait yaradır.

Araşdırmalar göstərir ki, uşaqların elmi, texnoloji, mühəndislik (konstruktiv bacarıq) və riyazi bacarıqlarının inteqrativ şəkildə formalaşmasını təmin edən STEM təhsil modelinin tətbiqi məşğələ və məşğələdənkənar fəaliyyət zamanı aşağıdakı göstəricilərlə səciyyələnir:

- uşağın müstəqil düşünüb qərar verərək yaradıcı fəaliyyətə cəlbi;
- fərdi, yaxud yoldaşları ilə birgə səmərəli qarşılıqlı fəaliyyət göstərməsi;
- təlim, oyun və s. fəaliyyət növlərinin icrası zamanı quraşdırma işləri ilə mühəndislik, əşyaların ölçü və sayının, forma və kütləsinin müəyyənləşdirilməsi ilə sadə riyazi, məntiqi bacarıqların formalaşdırılması;
- sosial bərabərliyin və psixoloji şəraitin yaradılması;
- uşağın yaradıcı təfəkkürünün və praktik fəallığının inkişafı;
- əldə edilmiş biliklərin müstəqil formada təcrübəyə tətbiqi;
- təlim zamanı müasir resurslardan və İKT-dən istifadə;
- özünü və yoldaşlarını qiymətləndirmə;



- obyektiv aləmdə mövcud olan cism və hadisələr haqqında, onlar arasındakı səbəb və nəticə əlaqələrini mənimsəmə və s.

Göründüyü kimi, STEM-in tətbiqinin vacibliyi ondan irəli gəlir ki, bu təhsil modeli elmi və texnoloji baxımdan uşaqların gündəlik həyatda bütün fəaliyyət sahələrini əhatə edir. Belə ki, səma cisimləri, təbiət hadisələri, torpaq, su, işıq, bitkilər, heyvanlar və s. haqqında biliklər uşaqlarda elmi bacarıqların; mövcud texnoloji komponentlər: telefon, kompüter, televizor və s. haqqında informasiya texnoloji bacarıqların; körpü, ev, bina, qaraj, yol tikintisi və s. haqqında biliklər isə uşaqlarda elementar mühəndislik bacarıqlarının formalaşdırılmasına təkan verir ki, bunu da uşaqlar pazl və digər konstruktiv materiallarla, yaxud müxtəlif təbii resurslar, tullantı materialları ilə tikinti-quraşdırma, yapma fəaliyyətlərində sərbəst nümayiş etdirirlər. Bu fəaliyyətlər uşaqlarda yüksək əhvali-ruhiyyə yaradır, çünki onlar bu prosesdə yoldaşları ilə birgə fəaliyyət zamanı müstəqil olaraq elmi-texnoloji-konstruksiya-riyazi bilik və bacarıqlara komplekt şəkildə təcrübi yolla yiyələnirlər.

Qeyd etmək lazımdır ki, uşaqların bilik və bacarıqlara bu cür inteqrativ yolla yiyələnmələrində oyunun rolu daha böyükdür. Bu baxımdan, STEM-in oyunla tətbiqi uşaqların yeni biliklərə asanlıqla yiyələnmələrinə, ətrafdakı əşya və hadisələri daim izləyərək müşahidələrinə əsasən öz “kəşflərini” yaradıcı məhsullarında böyük zövqlə nümayiş etdirmələrinə şərait yaradır. Uşaqlarla bu istiqamətdə işin səmərəli təşkili üçün valideynlərin də STEM modeli ilə tanış edilməsi, maarifləndirilməsi əsas şərtlərdəndir. Belə ki, valideynlərin tərbiyəçi-müəllimin tövsiyələri əsasında ailədə elmi-texnoloji, riyazi-məntiqi və konstruktiv məzmunlu oyunlar təşkil etmələri uşaqların inkişafı baxımından bu istiqamətdə aparılan işin səmərəli təşkilinə böyük dəstək verir.

*Problemin aktuallığı:* Respublikamızda məktəbəqədər təhsilin kurikulumuna əsasən innovativ texnologiyalarla təşkil olunmuş təlimdə uşaqların qarşılıqlı ünsiyyət və əməkdaşlıq, yaradıcılıq, tənqidi düşüncə və s. bacarıqlara inteqrativ şəkildə yiyələnmələri STEM təhsil modelinin tətbiqini aktuallaşdırır.

*Problemin elmi yeniliyi:* Məqalədə məktəbəqədər yaşlı uşaqların müxtəlif fəaliyyət növləri zamanı texnologiya, tikinti və s. konstruktiv işlərə, elementar riyazi bilik və bacarıqlara inteqrativ yolla yiyələnmələrində STEM təhsil modelinin tətbiqi yolları geniş xarakterizə olunur.

Dünya təcrübəsi

**Müasir təhsil fenomeni adlandırılan STEM/STEAM tədris metodikası Finlandiyada milli təhsil siyasətinin prioritet sahəsi hesab olunur. Bu ölkədə uşaqların STEAM təhsilə cəlb olunması öndə duran ən vacib məsələ olduğu üçün Finlandiya məktəbliləri artıq 20 ildən çoxdur ki, (2000-ci ildən) PISA (Programme for International Student Assessment) və TIMSS (Trends in International Mathematics and Science Study) kimi beynəlxalq qiymətləndirmə proqramlarında ən yaxşı nəticələr göstərirlər. STEAM təhsil proqramı Finlandiyada məktəbəqədər tədris müəssisələrdən başlayaraq peşə təhsil müəssisələrində, universitetlərdə tədris olunur. Hətta böyüklər üçün yaş məhdudiyyəti olmayan STEAM təhsil müəssisələri, kursları fəaliyyət göstərir.**




# Finlandiyada STEAM

## Finlandiyada STEM/STEAM təhsilə keçid

Finlandiyada STEM (science-elm, technology-texnologiya, engineering-mühəndislik, math-riyaziyyat) təhsilin inkişafına təkan verən əsas amil ölkədə müharibədən sonra (1939-1940-cı illər Fin-Sovet müharibəsi) mövcud çətin vəziyyət olub. SSRİ müharibədən sonra Finlandiyadan böyük məbləğdə kompensasiya tələb edir. Finlandiya şərq sərhədlərinin 11%-ni Sovet İttifaqına vermək məcburiyyətində qalır, həmçinin 300 milyon dollar civarında sellüloza-kağız, metal emalı və gəmiqayırma (buzqıran) sənayesi üçün ağır texnika avadanlığı ödəməli olur. O zamanlar ağac emalı sənayesi üzrə ixtisaslaşmış ölkədə metallurgiya sahəsinə istiqamətlənmək çox vacib məsələ idi. Beləliklə, ölkədə metal emalı sənayesi üzrə əmək, maliyyə və texniki resurslara tələbat yaranır. Ölkə sənayesində müsbət struktur dəyişikliyi baş verir və bu dövr Finlandiyanın təhsil və əmək bazarında STEM mədəniyyətinin davamlı inkişaf dövrü hesab olunur.






1970-ci ildən Finlandiyada təhsil islahatlarına başlanılır və bərabərliyə, effektiv qiymətləndirilməyə, pulsuz təhsilə, yüksək hazırlıqlı müəllim qüvvəsinə malik təhsil sistemi qurulur. Həmin dövrdən STEM tədris metodikası ölkədə populyarlaşır, müəllimlər hər məktəb üçün tədris proqramı işləyir. Ölkənin təhsil sisteminin özəl aspektlərindən biri kütləvi iş və səylərdir. Müəllimlər, təhsil işçiləri hər həftə bir yerə toplaşaraq təhsil proqramı üzərində birgə işləyirlər.

1996-cı ildən 2002-ci ilədək səriştənin yüksək səviyyəsini və davamlı müəllim hazırlığını dəstəkləmək məqsədilə Finlandiya Milli Təhsil Şurası tərəfindən LUMA proqramı irəli sürülür. "Luonnontieteet" fin sözündən əmələ gələn abreviatura "Təbiət elmləri və riyaziyyat" mənasını verir. Proqram Finlandiya elmi, təhsil səviyyəsinin, beynəlxalq çərçivədə provayder səriştəsinin qaldırılması, təhsil təcrübəsinin təkmilləşdirilməsi, STEM təhsilə yüksək marağın oyadılması məqsədini daşıyır. LUMAT termini texnologiya sözünün birləşməsindən əmələ gəlib.

**Müasir təhsil fenomeni Finlandiya təhsil siyasətinin prioritet sahəsidir**

## LUMA mərkəzləri

2003-cü ilin dekabrında Helsinki Universitetində ilk LUMA Mərkəzi yaradılır. Mərkəzin əsas məqsədi bütün Finlandiya ərazisində LUMA-nın fəaliyyətinin, eləcə də elmi-texniki təhsil sahəsinin möhkəmləndirilməsi olur. Bu məqsədlə ölkə ərazisində daha 13 universitetdə LUMA Mərkəz yaradılır.

Milli və beynəlxalq səviyyədə mərkəzlərin əməkdaşlığını və inkişafını təmin etmək üçün 8 noyabr 2013-cü ildə Baş LUMA Finlandiya Mərkəzi fəaliyyətə başlayır. Mərkəz ölkədə STEAM sahəsində mövcud olan problemlərin, mütəxəssis çatışmamazlığının həlli məsələlərilə məşğul olur. LUMA mərkəzlərinin fəaliyyətinə uşaq və gənclər üçün elmi və texniki klubların, düşərgələrin yaradılması, tədbir və kursların təşkili daxildir.

LUMA mərkəzlər bütün Finlandiya üzrə müəllimlər üçün ixtisasartırma kursları təşkil edir. Təklif olunan tədbir və kursların əksəriyyəti sosial-iqtisadi vəziyyətindən asılı olmayaraq hər bir şəxs üçün pulsuz və əlçatandır. Finlandiyada STEAM metodikasını tədris edən müəllimlər STEAM-ın inkişaf etdiyi ABŞ, Kanada, Sinqapur, Yaponiya, Cənubi Koreya kimi ölkələrdə təcrübə mübadiləsində iştirak edir, nailiyyətlərini bölüşürlər. COVID-19 pandemiyasının yaratdığı vəziyyətlə əlaqədar olaraq son iki ildə STEAM mütəxəssisləri onlayn kurslardan, beynəlxalq vebinarlardan istifadəyə üstünlük verirlər.

Müəllimlərin STEAM fəaliyyətinə dəstək məqsədilə beynəlxalq "LUMAT" jurnalı *(www.lumat.fi)* nəşr edilir. Burada STEAM təhsil texnologiyaları, müxtəlif istiqamətli tədqiqat materialları dərc olunur. LUMARTS Laboratoriyasında tədris metodikasının təkmilləşdirilməsi üçün məktəb müəllimlərinə seminarlar, kurslar təşkil edilir. Burada laboratoryadan istifadə, avadanlıqların istifadəsi, təcrübə və tədqiqatların aparılması öyrədilir. Mövzular oriqamidən başlayaraq gen texnologiyaları, proqramlaşdırmaya qədər dəyişir.

LUMA Finlandiya Mərkəzi "Hər uşaq və yeniyetmə komanda işində (Teamwork) ulduz (Star) ola bilər" şüarı altında bütün təhsil müəssisələri üçün nəzərdə tutulmuş beynəlxalq "StarT" müsabiqəsi təşkil edir. Bu müsabiqədə dünyanın müxtəlif məktəblərindən olan şagirdlər ixtiralarını, icad etdikləri əşyaları, STEAM sahəsində qazandıqları uğurları nümayiş etdirirlər.

Mütəmadi olaraq LUMA mərkəzlər tərəfindən konfranslar keçirilir, fəaliyyət və nailiyyətləri haqqında məlumatlar *LUMA.fi* milli onlayn portalında yerləşdirilir, LUMA TV vasitəsilə izləyici auditoriyasına çatdırılır. Hər bir universitet şəxsi LUMA Mərkəzini maliyyələşdirir. Bir çox milli STEAM proqramları Finlandiya Təhsil Nazirliyi, eləcə də yerli hakimiyyət orqanları, müəssisə və fondlar tərəfindən maliyyələşdirilir və dəstəklənir.

## STEAM məktəbəqədər təhsil müəssisələrində

Finlandiyada STEAM təhsili məktəbəqədər təhsil müəssisələrindən başlayır. "Düzəldərək öyrənmək" prinsipi kiçikyaşlı uşaqların təhsilində ən əsas hissə hesab olunur. Bağçalarda uşaqlar şən oyunlar vasitəsilə elmlərin əsaslarını mənimsəməyə start götürürlər. Oyunlarla, maraqlı təcrübələr aparmaqla əldə etdikləri bilikləri real həyatda tətbiq etməyi, sınaq və səhvlərdən nəticə çıxarmağı, problemə yaradıcı yanaşmağı öyrənir, yeni ideyalara həvəsləndirilirlər. Körpələrin dünyagörüşünü dəyişdirəcək ekskursiyalar, təbiət qoynunda oyunlar təşkil olunur (misal üçün, uşaqlar daş dövrünün insanlarının necə həyat tərzi keçirdiyini oyun vasitəsilə öyrənir). Finlandiyanın ərazisinin çox hissəsini meşələr təşkil etdiyindən, bağça uşaqları meşələrdə çox vaxt keçirir, təbiəti canlı müşahidə edərək öyrənirlər.

Məktəbəqədər təhsil müəssisələrində uşaqlar tərəfindən müxtəlif Lego konstruksiyalar hazırlanır. Bağçalarda 4 yaşdan robot texnikası, proqramlaşdırma, təbiət elmlərinin əsasları üzrə tədris proqramları tətbiq edilir və bu proqramlar məktəb təhsili dövründə daha da genişlənir. Robot texnikasına uşaqlar mexanikanın əsaslarını, mexaniki sistemləri öyrənərək başlayır, mövzuya uyğun olaraq şəxsi qurğularını hazırlayır və tədricən bu qurğuların strukturu mürəkkəbləşir.

## STEAM məktəblərdə

Finlandiya məktəbləri daha yüngül, yumşaq uşaq təhsili modelindən (qısa məktəb günləri, tez-tez fasilələr, minimal standartlaşdırılmış sınaq, kiçik ev tapşırığı, incəsənəti, elmi və praktiki bacarıqları vurğulayan balanslaşdırılmış kurikulum) istifadə edərək bu gün dünyanın bir nömrəli təhsil müəssisələrinə çevriliblər.

Finlandiya məktəblərində STEAM tədris metodikası ibtidai sinifdən tədris edilir və uşaqlara fənlər arasında olan bağlılığı duymağa, onları ayrı-ayrılıqda deyil, bir-biri ilə əlaqəli öyrənməyə, öyrəndiklərini təcrübədə istifadə etməyə sövq edir. Təbiət elmləri vasitəsilə uşaqlar müxtəlif təbiət hadisələrini müşahidə edir və öyrənir, elmi yolla analiz edirlər. Hər mövzuya nəzəriyyə, praktiki-eksperimental iş, sadə testlər daxildir.

Proqramlaşdırma sahəsinin tədrisinə ibtidai sinifdən başlanır və məktəbi bitirənədək davam edir. Uşaqlara hesablama düşüncəsi, proqramlaşdırmanın əsasları, nəzəriyyəsi, məntiqi, strukturu və proqramlaşdırma əmrləri öyrədilir. Şagirdlər əvvəlcə vizual proqramlaşdırmanı, sonradan isə tədricən Python, Java, C, Arduino, Microbit və Unity layihələrinin köməyilə "real" mətn kodları yazmağı mənimsəyirlər. Qabaqcıl robot texnikası qruplarında uşaqlar robotları proqramlaşdırmağı, daha təkmil və mürəkkəb sistemlər yaratmağı öyrənirlər.

Finlandiya məktəblərinin yuxarı siniflərində şagirdlər içməli su problemi, suyun təmizlənməsi, iqlim dəyişikliyi, texnogen və ekoloji fəlakətin baş verməməsi üçün çıxış yollarının axtarılması və s. bu kimi qlobal mövzular ətrafında birgə düşünür və şəxsi həll yollarını təklif edirlər. Məktəblərdə dəqiq elmlərin incəsənət, humanitar sahələrlə bir arada öyrədilməsi uşaqlarda əxlaq, dəyərlər, etika, cavabdehlik kimi davranışların, akademik performans, ixtiraçılıq, dil inkişafı, vizual öyrənmə, motor bacarıqlarının formalaşmasına səbəb olur.

Finlandiyada STEAM tədris təcrübəsinin ən parlaq nümunəsi kimi Şərqi Finlandiyada yerləşən Yli-Ii Məktəbini göstərmək olar. Oulu şəhərinin yaxınlığındakı bu kənd məktəbində 300-ə qədər şagird, 30 işçi var. Məktəbdə "Varkkaamö" adlanan STEAM guşəsi yaradılıb. Burada şagirdlər əməkdaşlıq, yaradıcılıq, kritik düşünmə, texnologiyalardan istifadə vasitəsilə öyrənir, tədqiqatlar aparır, yaradır və nailiyyətləri ilə bölüşürlər. Guşə müasir avadanlıqlar, lazer kəsici, vinil kəsici, CNC oyma maşını, elektron aparatlar, dronlar, robot texnikası, 3D printerlər kimi müasir alətlərlə təchiz edilib."Varkkaamö" STEAM guşəsi milli və beynəlxalq səviyyədə tanınır və guşə ilə tanış olmaq üçün dünyanın hər yerindən bura qonaqlar gəlir. Yli-Ii Məktəbi ucqar şəraitdə dünya səviyyəli təhsil almağın canlı sübutudur və Finlandiyada yüzlərlə bu cür məktəb mövcuddur.

Finlandiyada uşaqlarla yanaşı valideynlərin də STEAM təhsilə cəlb edilməsinə xüsusi diqqət ayrılır, bu məqamın uşaqların həvəsləndirilməsinə və qavramasına böyük dəstək olduğu vurğulanır.

## STEAM ali təhsildə

Finlandiya ali təhsil müəssisələrinə universitetlər və "tətbiqi elmlər universiteti" (fin dilində "ammattikorkeakoulu", politexnik də deyilir) adlandırılan təhsil müəssisələri aiddir. Ölkədə 17 universitet, 27 tətbiqi elmlər universiteti fəaliyyət göstərir. Universitet və politexniklərin əksəriyyəti dövlət ali təhsil müəssisələridir. Onlardan ən məşhurları Helsinki, Abo Akademik, Turku, Oulu, Vaasa, Laplandiya, Aalto, Tampere, Şərqi Finlandiya və s. universitetlərdir.Bu universitetlərin hər birində STEM (elm, texnologiya, mühəndislik, riyaziyyat) ixtisaslarına incəsənətin növləri, qrafika, dizayn, etika kimi humanitar sahələr daxil edilərək STEAM yönümlü proqramlar hazırlanır. Bu proqramlar daha geniş spektrli tədris metodlarından istifadə edərək müxtəlif öyrənmə üslubları olan tələbələrə STEM fənlərini qavramaqda kömək edir, uğur qazanmaq şanslarını artırır. Bəzi mütəxəssislər STEAM proqramlarına qarşı çıxaraq tələbələrin qeyri STEM fənlərinə çox vaxt yetirməsinin STEM təhsilinin keyfiyyətini zəiflədəcəyini, tələbələrin STEM sahələri üzrə kifayət qədər bacarıqlı olmayacağını söyləyirlər. Buna baxmayaraq, ali məktəblərdə STEAM proqramlarına maraq günü-gündən artmaqdadır.

Əvvəldə qeyd etdiyimiz kimi, əksər universitetlərdə STEAM təhsili dəstəkləyən LUMA mərkəzlər fəaliyyət göstərir. Bu universitetlərdə tələbələrə yüzlərlə STEM ixtisaslar verilməklə yanaşı, bağça tərbiyyəçiləri, orta məktəb müəllimləri, valideynlər, ümumiyyətlə, maraqlanan hər kəs üçün STEAM tədris metodikası üzrə ixtisasartırma kursları mövcuddur. Həmin universitetlərdə dünyanın bir çox inkişaf etmiş ölkələrində STEAM üzrə təcrübə keçmiş yüksək ixtisaslı mütəxəssislər çox maraqlı mühazirələr oxuyurlar.

LUMA mərkəzlərin fəaliyyətini konkret Aalto Universitetinin gördüyü işlərlə misal göstərmək olar. Burada orta məktəb şagirdlərinin dəqiq elmlər üzrə motivasiyasının inkişafı üçün müxtəlif layihələr, mühazirələr, kurslar, tədqiqat laboratoriyaları hazırlanıb. Məktəb müəllimləri universitetin LUMA Mərkəzində müəyyən vaxt rezervasiya edir və şagirdlər burada təcrübələr həyata keçirirlər. Müəllim uşaqlara, Aalto Universitetinin ayırdığı köməkçi isə laboratoriyada aparılan işə cavabdehlik daşıyır. 10-20 yaşlı öyrənənlərin mərkəzdə keçirdikləri vaxt bir saatdan bir neçə saatadək uzana bilər. Burada təşkil olunan təcrübələrə eksperimental laborator iş, tədqiqat laboratoriyalarının ziyarət edilməsi, alimlərlə apardıqları tədqiqatlar haqqında diskussiyalar daxildir.

2012-ci ildə Aalto Universiteti tərəfindən yaxın ərazilərdə yerləşən orta məktəblər üçün xüsusi LUMARTS laboratoriyası inşa edilib. Bu laboratoriyada DNK-nın emalı və incəsənət sahələri daxil olmaqla orqanik materialların tədqiqatı üçün avadanlığa malik Biofiliya guşəsi yaradılıb. Laboratoriya STEAM-ın pozitiv imicinə dəstək məqsədilə yardılıb və elm, incəsənət, texnologiya sahələri üzrə unikal təhsil təcrübəsi təklif edir. Laboratoriyanın məqsədi müəllim və şagirdlərə məktəblərdə olmayan avadanlıqları əlçatan etməkdir. Laboratoriya məktəb müəllimlərilə əməkdaşlıq edərək davamlı inkişaf edir.

Aalto Universiteti həmçinin yuxarı sinif şagirdləri üçün riyaziyyat, kimya, biologiya, astronomiya və s. fənlər üzrə ali məktəbin professorları tərəfindən oxunan yüksək keyfiyyətli mühazirələr təklif edir. Burada kosmos və peyklər, mikro və nanotexnologiyalar, tibbi kimya kimi mövzular daha çox öyrənənlərin marağına səbəb olur.

Finlandiyada STEAM təhsilin tətbiqinin digər uğurlu nümunəsi olaraq Qadolin Laboratoriyasını göstərmək olar. Bu laboratoriyada şagird və tələbələr sənayedə istifadə olunan içməli suyun analizi, təbiətdə çürüyə bilən plastikin istehsalı, duzluluğun (şoranlaşmanın) ölçülməsi, biodizel istehsalı və digər təcrübələr həyata keçirir.

İntellektual və təhsil islahatları baxımından zəngin Finlandiya təhsilinin uğurunun əsas səbəbi məqsəd olaraq səriştəli mütəxəssis yetişdirmək, gələcək nəslin peşəkar rifahını təmin etməkdir. Dünyaca məşhur finlandiyalı professor, təhsil tədqiqatçısı Pasi Sahlberq deyir: "Uğurlu təhsilə nail olmaq üçün yeni yanaşma gətirmək, real vəziyyətə uyğun qabaqcıl ideya irəli sürmək, təhsil müəssisələrinin peşəkar səviyyəsini artırmaq gərəkdir".

**Lamiyə ƏLİMƏRDANOVA**

# ZƏFƏRin işığında

**Gənclərin xalqına, vətəninə və dövlətinə bağlı layiqli vətəndaş kimi yetişdirilməsini başlıca vəzifələrindən biri olaraq müəyyən edən Mingəçevir Dövlət Universitetində (MDU) 44 günlük Vətən müharibəsi və Şanlı Zəfər tarixinin öyrənilməsi və təbliği diqqət mərkəzində saxlanılır, qəhrəman şəhidlərimizin adlarının əbədiləşdirilməsinə, cəsur əsgər və zabitlərimizin göstərdikləri şücaət və vətənpərvərlik nümunələrinin tələbə gənclərə ötürülməsinə xidmət edən müxtəlif formatlı tədbirlərin keçirilməsinə xüsusi önəm verilir. Bu baxımdan, cari ilin 3-7 noyabr tarixləri MDU-da Qarabağ Zəfərinin birinci ildönümü münasibətilə keçirilən çoxsaylı silsilə tədbirlərlə əlamətdar oldu.**



## Tarixi QƏLƏBƏ

## Mingəçevir Dövlət Universitetində silsilə tədbirlərlə qeyd olunub




### Qarabağ və Şərqi Zəngəzur rayonlarını təmsil edən deputatlarla konfrans

Noyabrın 4-də MDU-da Zəfər Gününə həsr olunan "Vətən müharibəsi: qalibiyyətin təntənəsi və doğma Qarabağın dirçəlişi" mövzusunda konfrans keçirilib. MDU-nun inzibati və akademik heyət üzvləri, tələbə və magistrantlarının iştirakı ilə "Zoom" platforması üzərindən onlayn formatda təşkil olunan konfransda Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev, deputatlar Ceyhun Məmmədov və Vüqar Bayramov çıxış ediblər.

MDU-nun rektoru Şahin Bayramov Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Silahlı Qüvvələrinin qəhrəmanlığı sayəsində 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərin birinci ildönümü münasibətilə iştirakçılara təbriklərini çatdırıb. Şanlı qələbənin rəmzinə çevrilən "Dəmir yumruq" ilə erməni faşizminin başını əzən, düşmən ordusunun belini qıran və Vətən tarixinin qəhrəmanlıq salnaməsini yazan igid əsgər və zabitlərlə qürur duyduğunu deyən rektor ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi uğrunda canından və qanından keçən bütün şəhidlərə rəhmət, qazilərə isə şəfa diləyib.Düşmən işğalından azad edilmiş əzəli torpaqlarımızda Azərbaycan bayrağının qürurla dalğalandığını qeyd edən Ş.Bayramov qalib xalqın Müzəffər Ali Baş Komandanı kimi dövlət başçısının doğma yurdlarımıza səfərlərini böyük sevinc və fəxarət hissləri ilə izlədiyini və Qarabağın tezliklə cənnətə çevriləcəyinə əminliyini bildirib.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev Zəfər Günü münasibətilə konfrans iştirakçılarını təbrik edib, xalqımıza və dövlətimizə daim firavan günlər, yüksəliş və tərəqqi arzulayıb. Tarixi Zəfərin qazanılmasında qəhrəman şəhidlərimizin mühüm pay sahibi olduğunu qeyd edən millət vəkili onların əziz xatirəsinin hər zaman böyük ehtiramla anılacağını və heç zaman unudulmayacağını bildirib. Müstəqilliyin ilk illərində Azərbaycanın suverenliyinin şübhə altına alındığını və torpaqlarının 20 faizinin işğal edildiyini deyən B.Əliyev qələbənin təməlində məhz Ümummilli Liderin siyasi hakimiyyətə qayıtdıqdan sonra həyata keçirdiyi, hazırda möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən hərtərəfli inkişaf strategiyasının və xalqın iradəsinə uyğun aparılan məqsədyönlü siyasətin dayandığını vurğulayıb. O, dövlətin iqtisadi qüdrəti, effektiv diplomatiyası, müasir güclü ordusu ilə yanaşı, əsgər və zabitlərin şücaətini, informasiya mübarizəsində üstünlüyü, milli birlik və siyasi həmrəyliyi, qardaş Türkiyənin mənəvi dəstəyini möhtəşəm qalibiyyəti şərtləndirən başlıca amillər kimi dəyərləndirib. Tarixi Zəfərdən sonra bölgədə yaranan yeni reallıqlardan söhbət açan millət vəkili qısa müddət ərzində işğaldan azad edilmiş rayonların sürətlə yenidən qurulması və dirçəldilməsi işlərinin aparılmasını dövlətin iqtisadi potensialının gücündən xəbər verdiyini diqqətə çatdırıb.

Sonra Milli Məclisin deputatları Ceyhun Məmmədov və Vüqar Bayramov çıxış edərək Zəfər Günü münasibətilə konfrans iştirakçılarına təbriklərini çatdırıblar.

### Türkiyənin tərəfdaş universitetləri ilə birgə

Noyabrın 5-də MDU və Ankara Hacı Bayram Veli Universiteti (AHBVU) arasında əməkdaşlıq çərçivəsində Qarabağ Zəfərinin birinci ildönümünə həsr olunan birgə elmi konfrans keçirilib. Konfransda hər iki universitetin akademik və inzibati heyət üzvləri, tələbə və magistrantları iştirak ediblər. "Zoom" platforması üzərindən onlayn formatda təşkil edilən konfransda MDU-nun rektoru Ş.Bayramov və AHBVU-nun Turizm fakültəsinin dekanı İrfan Yazıcıoğlu açılış nitqi söyləyiblər.

AHBVU-nun professoru Bilgehan Gülcan "Qlobal inkişaf işığında Türkiyə - Azərbaycan turizm münasibətləri: Qarabağ yeni bir turizm destinasiyası kimi", MDU-nun müəllimləri Aygün Qədirova "Qarabağ Zəfəri: Azərbaycan tarixi mirasına yenidən qovuşdu" və Mətanət Yusifova "Qarabağ Zəfərinin əldə edilməsində liderlik faktoru" mövzularında məruzələrlə çıxış ediblər.

Həmin gün Qarabağ Zəfərinin birinci ildönümünə həsr olunan birgə elmi konfrans MDU və Türkiyənin KTO Karatay Universiteti arasında əməkdaşlıq çərçivəsində keçirilib. MDU-nun rektoru Ş.Bayramov və KTO Karatay Universitetinin prorektoru Çağatay Ünüsanın açılış sözləri ilə başlayan konfrans "Zoom" platforması üzərindən onlayn formatda təşkil edilib.

KTO Karatay Universitetindən professor Murat Canıtez "Qarabağ Zəfərinin birinci ildönümü ərəfəsində: Türkiyə - Azərbaycan və Türk Dünyası üçün beynəlxalq ticarət və logistika baxışı", müəllim Fatma Didem Tunçes "Millətimiz bir, enerjimiz bir", MDU-dan baş müəllim İlham Məmmədov "Türk torpaqlarına qayıdış yeni tariximizin şanlı bir səhifəsidir" və müəllim Yeganə Məmmədli "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının kənd təsərrüfatı potensialı və modernləşmə perspektivləri" mövzularında çıxış ediblər.

Noyabrın 6-da Qarabağ Zəfərinin birinci ildönümünə həsr olunan birgə elmi konfranslar MDU və Türkiyənin Qazi Universiteti arasında əməkdaşlıq çərçivəsində davam edib. Konfransda Qazi Universitetinin rektoru Musa Yıldız və MDU-nun rektoru Ş.Bayramov çıxış ediblər.

Qazi Universitetinin professoru Selma Yel "Şuşa Bəyannaməsinin tarixi fonu", MDU-nun dosenti Nizami Zeynalov "Bölgənin geosiyasi mənzərəsini dəyişən Tarixi Zəfər", Kahramanmaraş Sütçü İmam Universitetinin professoru Toğrul İsmayıl "İkinci Qarabağ Savaşında Zəfəri təmin edən amillər və nəticələr", MDU-nun dosenti Esmira Cəfərova "Cənubi Qafqazda əbədi sülh, təhlükəsizlik və hərtərəfli inkişaf perspektivləri" mövzularında məruzələri dinlənilib.

### Ümumtəhsil müəssisələri ilə birgə tədbirlər

Noyabrın 3-də MDU və Mingəçevir şəhər 3 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə "8 noyabr- Zəfər Günü"nə həsr olunan "Zəfərin mübarək, ey Vətən!" adlı ədəbi-bədii tədbir keçirilib. Ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayan tədbirin açılışında MDU-nun rektoru Şahin Bayramov və Mingəçevir şəhər 3 nömrəli tam orta məktəbin direktoru Gültəkin Quliyeva çıxış ediblər.

MDU-nun Xarici dillər kafedrasının dosenti, Əməkdar müəllim Mayıl İsmayılovun "44 günlük Vətən müharibəsi Azərbaycan tarixinin ən şanlı səhifəsidir" mövzusunda çıxışından sonra Tarixi Zəfərə həsr olunan videoçarx nümayiş etdirilib və tədbir ədəbi-bədii hissə ilə davam edib. Tələbə və şagirdlərin ifasında Azərbaycan, ingilis və rus dillərində vətənpərvərlik mövzusunda müxtəlif kompozisiyalar, şeirlər və mahnılar səsləndirilib, rəqslər təqdim edilib.

Noyabrın 4-də MDU-nun təşkilatçılığı ilə Mingəçevir Dövlət Dram Teatrında Zəfər Gününə həsr olunan "44 günlük Vətən müharibəsinin canlı əfsanələri" mövzusunda tədbirdə MDU-nun əməkdaşları, tələbə və magistrantları, Mingəçevir şəhər Üzeyir Hacıbəyli adına 11 illik musiqi məktəbinin, 14 nömrəli tam orta məktəbin, 12 saylı "Şəfa" körpələr evi-uşaq bağçasının müəllim və şagird kollektivi iştirak ediblər. MDU-nun rektoru Ş.Bayramovun çıxışından sonra Mingəçevir şəhər Üzeyir Hacıbəyli adına 11 illik musiqi məktəbinin müəllimi Zülfiyyə Hacıyevanın ifasında "Qarabağ" musiqisi səsləndirilib.

Tədbirdə çıxış edən MDU-nun qazi məzunları, Vətən müharibəsində iştirak etmiş tələbə və əməkdaşları tarixi Zəfər yürüşündə keçdikləri şərəfli döyüş yollarından bəhs edib, torpaqlarımızın bütövlüyü uğrunda şəhidlik məqamına yüksələn əsgər yoldaşları ilə bağlı xatirələrini bölüşüblər və onların qəhrəmanlıqlarından danışıblar.

Tədbir Ü.Hacıbəyli adına 11 illik musiqi məktəbinin müəllimləri İsa Müseyibov və Səttar Orucovun ifasında vətənpərvərlik mövzusunda səsləndirilən musiqilərlə davam edib. Mingəçevir şəhər 14 nömrəli tam orta məktəbin və 12 saylı "Şəfa" körpələr evi-uşaq bağçasının şagirdləri tarixi Zəfərə həsr olunan müxtəlif şeir və kompozisiyalar təqdim ediblər. MDU tələbələrinin təqdimatında "44 gündə yazılan dastan" adlı səhnəciyin nümayiş etdirilməsi ilə tədbir sona çatıb

### Zəfər mühazirələri

Noyabrın 3-dən 5-dək Azərbaycan Respublikası təhsil nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "27 sentyabr Anım Günü və 8 noyabr Zəfər Günü ilə bağlı Tədbirlər Planı" çərçivəsində MDU və Mingəçevir Şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə universitetin bir qrup akademik heyət üzvü tərəfindən şəhərin altı məktəbində yuxarı sinif şagirdləri üçün 44 günlük Vətən Müharibəsi və Zəfər Gününə həsr olunan mühazirələr oxunub.



Noyabrın 3-dən 7-dək MDU-da 44 günlük Vətən müharibəsinə və Qarabağ Zəfərinə həsr olunan silsilə mühazirələr keçirilib. "Microsoft Teams" platforması üzərindən onlayn formatda təşkil edilən mühazirələrdə universitetin akademik və inzibati heyət üzvləri, tələbə və magistrantları iştirak ediblər.

### Tələbə və müəllim konfransları

Noyabrın 5-də MDU-da "Zəfər Günü tariximizə əbədi həkk olunmuş milli iftixar günüdür!" mövzusunda elmi-nəzəri konfrans keçirilib. Tədbirdə şəhid ailəsi üzvləri, Vətən müharibəsində iştirak etmiş məzunlar, professor-müəllim heyəti, tələbə və magistrantlar iştirak ediblər. Tədbirdən öncə, universitetin bir qrup tələbə və müəllim kollektivi Mingəçevir Şəhidlər xiyabanını ziyarət edib və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda müqəddəs şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın məzarları üzərinə gül dəstələri düzüblər.

Vətən uğrunda canından keçərək şəhidlik məqamına ucalan qəhrəmanlarımızın əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayan konfransın açılışında MDU-nun rektoru Şahin Bayramov çıxış edib. Şəhid Rahim Tağıyevin həyat yoldaşı Vüsalə Tağıyeva, universitetin qazi məzunu Abdulla Abdullayev, Vətən müharibəsi iştirakçısı Famil Məmmədov müharibə dövrü ilə bağlı xatirələrini bölüşüb, torpaqlarımızın hər qarışı uğrunda yüksək şücaət, fədakarlıq və cəsarət nümunələrini ortaya qoyan qəhrəmanlarımızla qürur duyduqlarını bildiriblər.

Konfransda "44 günlük Vətən Müharibəsi: tarixi ədalətin şanlı zəfəri", "Müzəffər Ordumuz Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün qarantıdır", "Vətən müharibəsindəki qələbədə Azərbaycan diplomatiyasının rolu", "Qarabağ torpağının hər bir qarışı şəhidlərimizin müqəddəs qanı ilə yoğrulmuşdur" mövzularında məruzələr dinlənilib.

Sonda Zəfər Gününə həsr olunan videoçarx nümayiş etdirilib. Tədbirdən sonra MDU rektoru Ş.Bayramov şəhid ailəsi üzvləri ilə görüşüb.

Noyabrın 6-da MDU İqtisadiyyat və idarəetmə fakültəsində Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə "Zəfər Günü: işğaldan azad olunmuş ərazilərin sosial-iqtisadi inkişaf tarixinin yeni başlanğıcı" mövzusunda elmi konfrans da silsilə tədbirlər sırasında yer alıb.

### Şəhid ailələrini ziyarət

Noyabrın 7-də MDU Həmkarlar İttifaqı Komitəsinin (HİK) üzvləri Aprel döyüşləri şəhidləri Adil Adilzadə, Teymur Qasımov, Rahim Tağıyev və Rüstəm Əhmədovun, 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan universitetin məzunları Oruc Nəcəfli, Əzəmi Hüseynov və Kənan Abdullayevin, həmçinin hazırda övladı universitetdə təhsil alan şəhid Yasən Əhmədovun ailələrini ziyarət ediblər.

Ailə üzvləri ilə görüşlərdə universitetin əməkdaşları Vətən yolunda canlarından keçən qəhrəman şəhidlərimizlə qürur duyduqlarını bildirib, xalqımıza layiqli və vətənpərvər oğullar böyüdən valideynlərə dərin ehtiramlarını ifadə edib və Zəfər Günü münasibətilə təbriklərini çatdırıblar. Şanlı Qələbənin qazanılmasında şəhidlərə borclu olduğumuzu qeyd edən HİK üzvləri Allahdan onlara rəhmət və yaxınlarına səbr diləyiblər. Şəhid ailələri onlara göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

# Peşə təhsilində diferensiallaşmış təqaüd sistemi formalaşır

**"Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 fevral tarixli 961 nömrəli Sərəncamında dəyişiklik edilib. Həmin dəyişikliyə əsasən peşə təhsili müəssisələrində təhsil alan tələbələrə təqaüdlərin verilməsi şərti və təqaüd məbləği fərqləndirilib. Belə ki, artıq təqaüdün məbləği tələbənin akademik göstəricilərindən asılı olacaq. "5" (yüksək texniki peşə təhsili səviyyəsində 91 - 100 bal) olan tələbələr 75 manat, akademik göstəriciləri "4" və "5" (yüksək texniki peşə təhsili səviyyəsində 71 - 100 bal) olan tələbələr 60 manat, akademik göstəriciləri "3" - "5" (yüksək texniki peşə təhsili səviyyəsində 51 - 100 bal) olan tələbələr, 50 manat alacaq. Dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, dövlət büdcəsinin vəsaiti hesabına təqaüdlər əyani təhsil alan tələbələrə aralıq qiymətləndirmə nəticələrinə görə müəyyən ediləcək.**



## Təhsil nəticələri yüksək olan hər kəs təqaüd alacaq



Zaur Əliyev



Zivər Ağabalayeva



Murad Məmmədov




Rüfət Əliyev

## Peşə təhsilinə maraq artacaq

Peşə Təhsili üzrə Dövlət Agentliyinin Peşə təhsili siyasəti və məzmunu şöbəsinin müdiri Zaur Əliyev "Azərbaycan müəllimi" qəzetinə açıqlamasında sözügedən dəyişikliyin əhəmiyyətini belə izah edib: "Yeni qərarla peşə təhsilində təhsil nəticələrinə əsaslanan diferensiallaşmış təqaüd sistemi formalaşacaq. Ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, təhsil nəticələri yüksək olan bütün tələbələrin təqaüd almalarına imkan yaranacaq. Ən əsası, bu dəyişiklik peşə təhsili pilləsində təhsil alan tələbələrə dövlət qayğısını artıracaq və onların sosial müdafiəsini gücləndirəcək".

Mütəxəssisin fikrincə, sərəncam peşə təhsili müəssisələrinə marağı da artıracaq: "Bu dəyişiklik akademik göstəriciləri daha yaxşı olan abituriyentlərin peşə təhsilinə marağını artıracaq".

Çünki ən önəmli dəyişiklik peşə mərkəzlərində təhsil alan tələbələrin təqaüdünün məbləğində əksini tapacaq: "Son qərara qədər peşə təhsili müəssisələrində dövlət hesabına təhsil alan tələbələrə təhsil müddətində 50 manat məbləğində təqaüd ödənilirdi. Verilmiş son qərar ilə təhsil nəticələrinə uyğun olaraq daha yuxarı təqaüd məbləği müəyyənləşdirilib".

## "Bu qərar çoxumuzu təhsilə bağlayacaq"

Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində Kompüter sistemlərində proqram təminatı ixtisası üzrə təhsil alan Rüfət Əliyevin fikrincə, diferensiallaşmış təqaüd sistemi peşə təhsili müəssisələrində təhsilin keyfiyyətinə çox təsir edəcək: "Qiymətləndirmə təhsildə önəmlidir, məncə. Bu, daha yaxşı təhsil almağa həvəsləndirir. Daha çox oxuyanda daha yaxşı mütəxəssis olacağını hər kəs bilir. Ancaq çox vaxt bunu bilmək kifayət eləmir. Əlavə bir stimula da, mütəmadi yaxşı oxumaq lazım olduğunu xatırladan bir səbəbə, hətta məcburiyyətə ehtiyac duyursan. Bir yarımillikdə əldə edəcəyin gəlirin qədərini müəyyənləşdirən bu qərar çoxumuzu təhsilə bağlayacaq".

R.Əliyev deyib ki, peşə təhsili müəssisələrində təqaüdə ehtiyac duya biləcək tələbələr xüsusilə çoxdur: "34 yaşındayam və təhsilin önəmini hələ indi anlamışam. Şirkətlər təhsilli işçilər axtarır və qarşıma çıxan bu şərt məni təhsil almağa məcbur etdi. Ancaq dərslərimin vaxtı elə müəyyənləşdirilib ki, işləyə bilmirəm. Ona görə də aldığım təqaüd gündəlik ehtiyaclarımı ödəmək üçün çox böyük köməkdir".

## "Ən yüksək təqaüd alacağam"

Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin tələbəsi Zivər Ağabalayevanın sözügedən sərəncamdan nəinki xəbəri var, hətta nəticələrini də hesablayıb. Peşə Təhsil Mərkəzində Mehmanxana və Restoran işinin təşkili və idarə edilməsi üzrə yüksək texniki peşə təhsili alan Zivərin sözlərinə görə, sərəncam onun hədəflərini dəyişib: "Birinci kursda oxuyuram. Təhsil aldığım ixtisas üzrə mərkəzimizin yüksək texniki peşə təhsili almaq imkanı qazanan ilk tələbələrindənəm və bu ixtisas üzrə ilk buraxılış olacağıq. Bu,onsuz da mənim üçün böyük məsuliyyətdi. Turizmə çox böyük marağım var. Olmaq istədiyim yeri qazanmaqda mənə ilk fürsət bu ixtisas üzrə yüksək texniki peşə təhsili verən ixtisasın açılması ilə verildi. İlk fürsətdən yararlandım və artıq bu ixtisas üzrə təhsil alıram. Prezidentin sərəncamı isə dövlətin mənə uğurlu təhsil və karyera üçün verdiyi növbəti fürsətdir. İndiyə qədər burada təhsilimi tamamlayıb daha yaxşı təhsil və karyera üçün ali məktəbə daxil olmağı düşünürdümsə, artıq buradakı təhsilimi ən yüksək qiymətlərlə tamamlamaq hədəflərimdən birinə çevrilib. Akademik göstəricilərimi 91-100-ə çatdırıb ən yüksək təqaüd alacağam. Hazırda təhsilim uğurla davam edir. Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin göstəriciləri yüksək olan tələbələrindənəm. Səylərimi daha da artırmalıyam, çünki sərəncam rəqiblərimi artıracaq. Bu stimul mənim qədər başqalarını da həvəsləndirəcək. Yüksək standartlarla dərs keçir, ən yaxşı şəraiti olan müəssisələrdən birində təhsil alırıq. Ən yüksək təqaüd alanlardan olmağım üçün heç bir manea yoxdur".

## "Tələbəni daha çox çalışmağa sövq edir"

Murad Məmmədov Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin II kurs tələbəsidir. Nəqliyyat vasitələrinin texniki istismarı ixtisası üzrə yüksək texniki peşə təhsili alır. Akademik göstəriciləri yüksək olan tələbələrdəndir: "Tələbə üçün təqaüd çox vaxt əsas gəlir mənbəyidir. Valideynlərimizə köməkdir. Qazanmayan biri üçün təqaüd ehtiyacların müəyyən qisminin ödənməsidir. Təqaüdün tələbə üçün anlamının nə qədər böyük olduğunu tələbəlik yaşayan hər kəs bilir. Hətta valideyni tərəfindən hər cür təmin edilən tələbələr üçün belə təqaüd əvəzsizdir. Üstəgəl, təqaüd məbləğinin akademik göstəricilərə görə fərqlənməsi tələbə üçün daha yaxşı oxumaq, keyfiyyətli təhsil üçün stimuldur. Bu, tələbəni daha çox çalışmağa sövq edir. Düşünürəm ki, bu dəyişikliyin əsasında da məhz bu məqsəd durur. Bizi daha hazırlıqlı olmağa, üstün göstəricilər əldə etməyə həvəsləndirir".

**Ruhiyyə DAŞSALAHLI**

# Təhsildə yeni yanaşmalar

**Yaşadığımız reallıqlar və yeni texnologiyalar dünyanın təhsil düzənində də əsaslı dəyişikliklər yaradıb. Təhsilalanların ənənəvi təlim üsullarından fərqli yanaşmalar tətbiq olunmaqla XXI əsrin bilik və bacarıqlarına, səriştələrinə alışdırılması pedaqoji müəssisələrdən, müəllimlərdən də tədris prosesində innovasiyaların tətbiqini tələb edir. Bu baxımdan, Təhsil Nazirliyinin təşəbbüsü ilə cari tədris ilində keçirilmiş "Təhsildə inkişaf və innovasiyalar üzrə V Qrant müsabiqəsi"nin qalib layihələri arasında bəhs etdiyimiz yanaşmalar üstünlük təşkil edir. Onlarla daha yaxından tanış olaq.**



Aybəniz Pənahova



Yeganə Ramazanova



Rauf Rəhimov

## V Qrant müsabiqəsi qaliblərinin uğur hekayələri

### "Qeyri-standart terapiya"

V Qrant müsabiqəsinin qalib layihələrindən biri "Qeyri-standart terapiya" layihəsidir. Bakıdakı 108 nömrəli tam orta məktəbin təsviri incəsənət müəllimi Aybəniz Pənahova müəllifi olduğu layihənin məqsədi və icrası çərçivəsində görülmüş işlər barədə məlumat verir:

- Layihənin məqsədi valideyn himayəsindən məhrum olmuş 15 uşaqla art terapiyanın keçirilməsi və onların əylənərək problemlərinin həll olunmasını, aqressiya, narahatlıqlardan azad olub daha rahat olmalarını, qabiliyyət və bacarıqlarının kəşf edilməsini, sosial adaptasiyanın artırılması, onlar üçün maneəsiz yaradıcı mühitin yaradılmasından ibarətdir. Art terapiyalarda Bakı şəhərində yerləşən valideyn himayəsindən məhrum uşaqlar üçün 1 nömrəli tam orta internat məktəbinin 8-12 yaş qrupuna daxil olan 15 şagirdi iştirak edib. Layihə ərzində 4 gün art terapiyalar (rəsm, oyun, gil, musiqi) keçirilib. Layihənin icrası çərçivəsində psixoloq Şəbnəm Əlizadə tərəfindən psixodiaqnostik test metodundan istifadə edilərək hər bir uşağın daxili aləmi, onu narahat edən problemlər haqqında məlumatlar toplanılıb, eləcə də fərdi problem sahəsi müəyyən edilib. Bundan əlavə, şagirdlərlə izoterapiya keçirilib. İzoterapiya zamanı uşaqlar rəsm çəkərək öz həyəcanlarını, düşüncə və qorxularını asanlıqla əks etdiriblər. Şagirdlər onların psixoloji, emosional və fiziki vəziyyətlərinə təsir edən rənglərin vasitəsilə müxtəlif janrlarda bir-birindən maraqlı əsərlər yaradıblar.

Bundan əlavə, oyun terapiyasından istifadə olunaraq şagirdlər qruplara bölünüb və onların ünsiyyət bacarığı, qarşılıqlı kömək xüsusiyyətləri, qrupdaxili və qruplararası bacarıqları inkişaf etdirilib. Hər qrupun lideri və passiv üzvü aşkara çıxarılıb. Oyun terapiyası zamanı təfəkkürün və təxəyyülün inkişafı üçün konstruktorlardan istifadə edilib. Şagirdlər gildən istifadə edərək hazırlanan müxtəlif fiqurları rəngləyərək, eləcə də daş tozundan müxtəlif formalı qəliblər vasitəsilə kiçik fiqurların hazırlanmasını öyrəniblər. Təlimçi, keramika üzrə rəssam, müəllim Aytən Dadaşova şagirdlərə gil texnikasının özünəməxsus xüsusiyyətlərini, digər texnikalardan fərqlənən əsas cəhətlərini izah edib. Daha sonra musiqi terapiyası keçirilib. Bu çərçivədə musiqi terapiyası ilə art terapiyanın birləşməsindən ibarət olan oyun texnikasından istifadə edilib.Texnika vasitəsilə emosional katarsiz olunma təmin edilib, eləcə də uşaqlar musiqi vasitəsilə relaksasiya olunub. Terapiyanın əsas hissəsində şagirdlərin iştirakı ilə müxtəlif musiqi nömrələri və mahnılar ifa olunub. Bütün bunlar uşaqların əhvali-ruhiyyəsini yüksəldərək duyğu və emosiyalarını sərbəst şəkildə hiss etmələrinə səbəb olub. Musiqi ağrı hisslərini azaltmaq, əzələ tonusunu bərpa etmək, ümumi psixi-emosional tonusu artırmaq imkanına şərait yaratdığı üçün şagirdlərlə birlikdə müxtəlif mahnılar da ifa olunub. Musiqi terapiyası dincəlmək, qeyri-müəyyənliyi və narahatlığı aradan qaldırmaq üçün fəal şəkildə istifadə edilib. Terapiyanın sonunda şagirdlər sertifikatlarla mükafatlandırılıb.

### "Riyaziyyata toxunaq, öyrənək"

Sumqayıt şəhər Təbiət Elmləri Təmayüllü Gimnaziyanın riyaziyyat müəllimi, "Riyaziyyata toxunaq, öyrənək" layihəsinin müəllifi Yeganə Ramazanova qeyd edir ki, şagirdlərə "STEAM nədir? Layihə əsaslı öyrənmənin həyatımızda rolu varmı" kimi suallar ünvanlasaq, onlar söhbətin nədən getdiyini bilməyəcəklər. Onlar riyaziyyatı quru, həyatla heç bir əlaqəsi olmayan bir fənn hesab edir, öyrəndiklərimizin bizə həyatda harada, nə zaman gərəkli olacağı kimi suallarla böyüyürlər.

- Riyaziyyat fənninin tədrisinin real həyatla əlaqələndirilməsi üçün dizayn, mühəndislik, incəsənət, fənn biliklərinin bir arada öyrədilməsi şagirdlərimizin yaradıcı olmalarına kömək edəcək. Elmin və texnologiyaların öyrədilməsində ənənəvi yanaşmadan fərqli olaraq, STEAM yanaşma, praktik məşğələlər vasitəsilə elmi- texniki biliklərin gündəlik həyatda necə tətbiq olunmasını şagirdlərə göstərməyimiz daha vacibdir.

Layihə əsaslı öyrənmə ilə tanışlıq nəticəsində şagirdlər mühəndis dizayn proseslərinin ardıcıllığı ilə tanış olacaqlar. Əvvəl müzakirə, iş bölgüsü, dizayn, yalnız bundan sonra inşa mərhələsi başlayır. Hər bir ayın sonunda bir layihə tamamlanmış olacaq. Hər bir sinif əldə etdikləri nəticələri web 2.0 alətlərindən istifadə etməklə ictimaiyyətə təqdim edəcək. Bununla həm də öz maraqlarını internetdən səmərəli istifadəyə yönəltmiş olacaqlar.

Şagirdlər bu layihənin icrası zamanı özlərini ifadə etmək bacarığını öyrənirlər. "Riyaziyyatı mühəndisliklə öyrənək" adlı layihədə şagirdlər əldə etdikləri bilgilərlə gündəlik həyatlarında mövcud problemlərə yaradıcı həll yollarını tapma, düşünmə qabiliyyətləri formalaşacaq ki, bu da XXI əsrin əsas tələblərindəndir.

"Riyaziyyata toxunaq, öyrənək" layihəsində şagirdlərin əylənərək, düzəldərək, öyrəndiklərini əllə tutula biləcək hala gətirərək, həyati bacarıqlar qazanmalarını və eyni zamanda müxtəlif sahələrdə riyaziyyatın tətbiqini reallaşdırmaq bacarığını aşılamaq əsas məqsədimizdir.

"Riyaziyyatı incəsənətlə öyrənək" aylığında şagirdlərə rəssamlıqda və musiqidə riyaziyyatın rolunu göstərəcəyik. Layihəmizin "Kosmonavtın enerjisi" adlı növbəti ayında şagirdlərin Şamaxı Rəsədxanasına səfəri təşkil ediləcək. Bundan əlavə şagirdlər "Dünyanın dayanıqlı inkişafını özündə əks etdirən 17 məqsədi araşdıracaqlar. Kosmonavtın enerjisini araşdırmaqla 17 məqsədi dərindən mənimsəyib öz həyatlarına tətbiq etməklə "Dünyamızı qoruyaq" layihəsinin iştirakçısı olacaqlar. Layihəmizin əhəmiyyəti:

- Riyaziyyatı toxunaraq öyrənmə şagirdlərdə özgüvən hissini artırır. Riyazi məsələlərə öz güvənləri ilə yanaşacaqlar; Şagirdlər sistemli, diqqətli, səbrli və məsuliyyətli olma özəlliklərini daha da inkişaf etdirmiş olacaqlar; Araşdırma, bilik əldə etmə, əldə olunan bilikləri bacarığa çevirmək kimi qabiliyyətləri formalaşacaq; Riyaziyyatın incəsənət, estetika ilə əlaqəsini görmüş olacaqlar; Riyaziyyat elminin insanlığın ortaq bir dəyəri olduğunu görüb bu elmə dəyər vermiş olacaqlar; Təbiətdə mövcud riyazi asılılığı dərk edəcək, riyazi asılılığı gündəlik həyatlarında tətbiq edəcəklər; Problemi həlletmə prosesində öz fikirlərini rahatlıqla ifadə edə biləcək, başqalarının riyazi fikir yürütmələrindəki əksikliyi və ya boşluğu görə biləcəklər; Şagird və müəllimlər web 2.0 alətlərindən istifadə qaydalarını öyrənmiş olacaqlar.

### "İnteraktiv Geogebra platforması Azərbaycan dilində"

Təhsildə tətbiq olunan informasiya texnologiyaları təhsilin bütün səviyyələrinə nüfuz etməkdədir. İT texnologiyalarından geniş istifadə sayəsində şagirdlər tədris materiallarını daha tez əldə edir, öyrənmə prosesi əvvəlkilərə nisbətən daha sürətli gedir. Zərdab şəhər 1 saylı məktəb-liseyin riyaziyyat müəllimi Rauf Rəhimovun müəllifi olduğu "İnteraktiv Geogebra platforması Azərbaycan dilində" layihəsi də mütərəqqi yanaşmaları və aktuallığı ilə seçilir. Layihənin hədəfləri barədə müəllif özü məlumat verir:

- Son dövrlərdə Təhsil Nazirliyi tərəfindən çoxlu sayda elektron resurslar yaradılaraq şagird və müəllimlərin ixtiyarına verilib. Bununla belə, internet şəbəkələrində əsasən ingilis və rus dillərində çoxlu sayda tədris resursları vardır ki, əksər dünya ölkələrinin şagirdləri bu resurslardan asanlıqla istifadə edə bilirlər. Şagirdlərimizin də bu resurslardan istifadə etməsi hədsiz dərəcədə arzuolunandır. Belə ki, əksər ölkələr həmin resursları öz dillərinə tərcümə edərək şagird və pedaqoqların ixtiyarına veriblər. Belə resurslardan biri də ingilis dilli "Geogebra" dinamik platformasıdır. "Geogebra" özündə tədrisin cəbr, həndəsə, cədvəllər,statistika kimi bölmələrini paket halında birləşdirən pulsuz riyazi proqramdır. Bu platformadan V-XI siniflərdə riyaziyyatın tədrisinin bütün mərhələlərində istifadə etmək olar. Məsələn, Estoniyada VI sinifdən başlayaraq dərsliklərdə "Geogebra"ya aid çoxlu sayda təlimat və çalışmalar var.

"Geogebra" proqramı Avropa və ABŞ-da təhsil üzrə müsabiqələrdə mükafatlar qazanıb. Platformanı kompüterə, planşet və smartfonlara asanlıqla yükləmək və istifadə etmək olar. "Geogebra" sadə istifadəçi intreyfeysinə malikdir və dünyanın 60-dan çox dilinə tərcümə olunub, 195 ölkəni əhatə edir. Bu platformadan həmçinin Tinkercad kimi STEAM layihələrində də istifadə etmək olar. Platformanın uğurlu icrasına başlanılıb, 20 şagirdə 3 ay ərzində təlim keçilib. Təlim zamanı şagirdlər "Geogebra"nın riyaziyyata tətbiqi ilə yanaşı fizika, biologiya,tarix, astronomiya kimi fənlərə inteqrasiya edə bildilər.Onlar platforma sayəsində mühəndis,qrafika və animativ filmlər yaratmaq sahəsində də bacarıqlarını göstərə bildilər. Platformadan hazırda tədris prosesində istifadə edirik. Şagirdlər platformanı bəyənsələr də Azərbaycan dilində interfeysin olmaması çox çətinlik yaradırdı. Platformanın öz dilimizdə olmaması şagirdlərin tez-tez verdiyi suallardan idi . Buna görə də palatformanın icma rəhbərinə məktub yazaraq "Geogebra" platformasının dilimizə tərcümə edilməsinə müsbət cavab aldıq. Platforma tərəfimizdən Azərbaycan dilinə tərcümə edilərək şagird, müəllim və tələbələrin istifadəsinə verildi.

Layihəmizin əsas məqsədi ingilis dilində mövcud olan açıq öyrədici əlavə resursların (Geogebra platforması) Azərbaycan dilinə tərcüməsi, adaptasiyası və məktəbdə tətbiqi, həmçinin platformanı şagird, müəllimlər və tələbələr arasında populyarlaşdırmaqdır.

**Oruc MUSTAFAYEV**

# “İnsan alverinə qarşı mübarizə”

**Sumqayıt Dövlət Universitetində “İnsan alverinə qarşı mübarizə” mövzusunda maarifləndirici tədbir keçirilib. Tədbirdə Sumqayıt Şəhər Polis İdarəsinin rəis müavini, polis polkovnik leytenantı Anar Əliyev, idarənin Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili bölməsinin rəisi, polis mayoru Azər Bağırov, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin İnsan Alveri Qurbanlarına Yardım Mərkəzinin psixoloqu Ülvi Zeynalov, “Polisə Dəstək” İctimai Birliyinin sədri, təqaüddə olan polis polkovniki Şəmsəddin Əliyev və universitetin müəllim-tələbə heyəti iştirak ediblər.**

## Sumqayıt Dövlət Universitetində maarifləndirici tədbir



Universitetin humanitar məsələlər üzrə prorektoru, dosent Ramiz Hüseynov ümumbəşəri problem olan insan alverinə qarşı mübarizə məqsədilə maarifləndirmə işlərinin aparılmasının vacibliyindən danışıb. Qeyd edilib ki, hər il minlərlə insan, əsasən, qadın və uşaqlar istismar və ya başqa məqsədlərlə insan alverinin qurbanı olurlar.

İnsan həyatının xilas olunmasının önəmindən danışan prorektor bu sahədə vətəndaş cəmiyyətini daha fəal olmağa səsləyib.

Sumqayıt Şəhər Polis İdarəsinin rəis müavini Anar Əliyev insan alverinə qarşı mübarizəni genişləndirmək məqsədilə DİN-in mütəmadi tədbirlər planı hazırlayaraq həyata keçirdiyini, Azərbaycanın bütün təhsil ocaqlarında, xüsusilə ali məktəblərdə insan alverinə və terrorizmə qarşı mübarizə metodlarının maarifləndirilməsi işinin aparıldığını diqqətə çatdırıb. Bildirib ki, hər bir vətəndaş insan alveri ilə mübarizədə hüquq-mühafizə orqanlarının yanında olmalıdır.

Tədbirdə insan alverinin doğurduğu fəsadlar, eləcə də ölkəmizdə bu bəlaya qarşı mübarizə istiqamətində həyata keçirilən tədbirlər barədə tələbələrə ətraflı məlumat verilib.

Sosial Xidmətlər Agentliyinin İnsan Alveri Qurbanlarına Yardım Mərkəzinin psixoloqu Ülvi Zeynalov insan alveri ilə mübarizə sahəsində mövcud vəziyyət, yardım mərkəzinin fəaliyyəti və insan alveri qurbanları ilə aparılan reabilitasiya tədbirləri barədə tədbir iştirakçılarını geniş məlumatlandırıb.

“Polisə Dəstək” İctimai Birliyinin sədri Şəmsəddin Əliyev insan alverinin sosial hüquqi hadisə kimi ictimai orqanizmin normal inkişafına neqativ təsir etdiyini, insanların sosial davranışlarına, onların iradə azadlığına və psixikasına zərər vurduğunu bildirib, dövlətin cinayətkarlıqla mübarizə siyasətinin mühüm cəhətləri barədə danışıb.

Sonda mövzuya dair videoçarx nümayiş olunub, tədbir iştirakçılarına bukletlər paylanılıb.



# Daim axtarışda olan müəllim

Pedaqoji fəaliyyəti ilə seçdiyi peşənin şərəfini qorumağa səfərbər olan Afət Zülfiqarova qabaqcıl müəllimlərdəndir. O, 1996-cı ildə ADPU-nun İbtidai təhsilin metodikası və pedaqogikası fakültəsini bitirib. İlk əmək fəaliyyətinə vaxtilə oxuduğu Bakıdakı 204 nömrəli tam orta məktəbdə ibtidai sinif müəllimi kimi başlayıb. Hazırda da bu təhsil müəssisəsində kiçik yaşlı uşaqlara dərs deyir.

Balaca fidan balalarla işləmək asan olmasa da, o, şagirdlərin və valideynlərin dərin hörmətini qazana bilib. Dərs dediyi sinfin bilik səviyyəsi həmişə yüksək olub.

Afət müəllim dərslərində fəal və interaktiv metodlardan bacarıqla istifadə edir. O, pedaqoji fəaliyyətində belə bir fikri tez-tez təkrarlayır: “Hər bir müəllim dərsinin səmərəli keçməsi üçün yorulmadan yeni forma və metodlar axtarmalı və fəal təlim texnologiyalarından bacarıqla istifadə etməlidir”.

Afət müəllim təlim-tərbiyə işində uğur qazanmaq üçün dərs dediyi şagigirdlərin valideynləri ilə hər gün əlaqə saxlayır, onların istək və arzularını dinləyir. Vaxtlı-vaxtında valideynlər yığıncağı keçirməyi daim diqqət mərkəzində saxlayır.

A.Zülfiqarova məktəbin içtimai həyatında da fəal iştirak edir. O, dəfələrlə məktəb rəhbərliyi tərəfindən Təşəkkürnamə və fəxri fərmanlar alıb.

Bəli, xalq arasında belə bir deyim var. Müəllim dəyişəndə cəmiyyət də dəyişir. Bu, onunla bağlıdır ki, insanların fikir və düşüncələrinin, həyata baxışlarının formalaşmasında, dəyişməsində müəllim böyük rol oynamaqla bütün cəmiyyətin şüurunda dəyişiklik yaratmaq gücünə malikdir.

Ona görə də Afət Zülfiqarova yaxşı müəllim adını saxlamaq üçün daim axtarışdadır. Boş vaxtı olarsa, onu ancaq məktəbin kitabxanasında görmək mümkündür.

Noyabrın 18-də Afət müəllimin doğum günü idi. Bu münasibətlə onun yaxınları ilə bərabər, şagirdləri də sevimli müəllimlərinə təbriklərini çatdırdılar.

Biz də bu təbriklərə qoşulub, Afət müəllimə pedaqoji fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

**Şakir CƏFƏROV**

# Erkən nigah problem kimi

**Biz öz milli kökünə bağlı, milli adətləri yaşadan, öz həyatımızda onları əsas götürən bir xalqıq. Xalqımızın gözəl adətləri çoxdur və bunlardan biri də müqəddəs dəyərlərə bağlı olan toy adətidir. O adət ki, onunla yeni bir ailənin təməli qoyulur. Təəssüflər olsun ki, bəzi toy məclisləri heç də gözəl bir ailənin təməlini qoymaq məqsədilə yox, müxtəlif maraqlar üçün qurulur. Əsasən də müxtəlif səbəblərdən qız uşaqlarının uşaqlıq həyatından alınaraq erkən nikaha cəlb edilməsi hal-hazırkı dövrümüzün aktual problemidir. Nəticədə bəzi qız uşaqları həm təhsildən uzaqlaşdırılır, həm də ailə məsuliyyətini dərk etmədən belə bir ağır yükü daşımaq məcburiyyətində qalır. Bu cür tələsik qurulan ailələr isə bəzən uğursuz və bəzən də qızların ağır bioloji və psixoloji travma almalarına səbəb olur. Həmçinin erkən nikah qadının təhsil almasını məhdudlaşdırır.**




## Müəllimlərin fəaliyyəti və məktəb-valideyn əməkdaşlığı bu problemin həllində mühüm amillərdəndir

Erkən nikah yaşı 18-dən az olan yeniyetmələrin nikaha daxil olmasıdır. 18 yaş uşaqların müdafiəsi baxımından 1989-cu il tarixli Uşaq Hüquqları Konvensiyasında müəyyənləşmiş son yaş həddidir. Beynəlxalq standartlara görə, uşaqların nikaha daxil olması insan hüquqlarının pozulması hesab olunur. Azərbaycan qanunvericiliyinə görə, yalnız rəsmi şəkildə bağlanmış nikahlar qanuni sayılır. Rəsmi nikahın bağlanması üçün iki əsas şərt vardır:nikah könüllü və nikah tərəflərinin yaşı qanunvericilikdə icazə verilimiş həddə olmalıdır. Azərbaycan Respublikasında nikah bağlamaq üçün aşağı yaş həddi kişilər və qadınlar üçün 18 yaş müəyyən edilib.

Lakin buna baxmayaraq, hələ də problemin olması bəzi insanların lazımi qədər maariflənmədiyini göstərir. Maarifləndirilmə sahəsində aparılan bütün tədbirlərin əsasında düzgün bilik və təşkilatçılıq dayanır. Bu prosesdə diqqəti müəllim-pedaqoqların fəaliyyətinə, həmçinin məktəb-valideyn işbirliyinin də mühim amillərdən biri olduğuna yönəltmək istərdim. Erkən nikahın qız uşaqlarının sağlamlığı üçün nə dərəcədə təhlükəli olduğunu anlamaq üçün ilk növbədə onun anatomik, fizioloji və psixoloji xüsusiyyətlərini bilmək lazımdır. N.K.Krupskaya yazırdı: “Pedaqoq hər şeydən əvvəl nəyi bilməlidir:insan orqanizminin anatomik quruluşunu, funksiyalarını və inkişafını. Bunları bilməyən yaxşı pedaqoq olmaz, uşaqları düzgün böyüdüb tərbiyə edə bilməz”. Bütün bu xüsusiyyətləri bilən hər bir pedaqoq erkən nikahla mübarizədə savadlı şəkildə iştirak edər, nəinki uşaqların maariflənməsində, həmçinin bu məqsədlə təşkil olunan tədbirlərə valideynləri də cəlb etməklə bu biliklərdən düzgün yararlanar. O, maarifləndirmə işində vacib məlumatları ötürməli, dəlillərlə fikrini əsaslandırmağı bacarmalıdır. İlk növbədə erkən nikahın fəsadlarının nələr olduğunu bilməli və anlaşılan formada izah etməlidir. Bəs bu fəsadlar nələrdir? Uşaqlıq və yeniyetməlik dövründə ailə quran qadının orqanizmi tam formalaşmadığı halda hamilə olması onun səhhətində müxtəlif problemlərin yaranmasına səbəb olur. Doğuş zamanı həm qadının, həm də uşağın ölüm ehtimalı yüksək olur. Bunun əsas səbəbi qadının fizioloji cəhətdən yetişməməsidir. Həmçinin doğuşdan sonrakı müxtəlif xəstəliklərin inkişaf riski artmış olur. Aparılan tədqiqatlara görə, 18 yaşdan kiçik anaların 35-55%-i yarımçıq uşaqlar və ya kifayət qədər çəkisi olmayan uşaqlar dünyaya gətirmə riski 19 yaşlı gənc analara nisbətən daha yüksəkdir. Uşaq ölümləri isə 60% yüksəkdir. Demək, erkən nikah təkcə ananın deyil, uşağın da sağlamlığını təhlükə altına alır. Uşaq yaşlarında yeni bir ailəyə, evə köçən qız yeni həyata psixoloji cəhətdən də hazır olmadığı üçün onda psixoloji problemlər yaranır. Bütün bu problemlər ciddi psixoloji hallara, ağır depressiya və hətta intihar cəhdinə gətirib çıxara bilər. Bu məlumatları almış valideyn göz görə-görə övladının, səbəb hər nə olursa-olsun bu cür əzab-əziyyətlərə qatlanmasına razı olmaz. Qızlar isə həm özlərinin, həm də dünyaya gətirəcəkləri uşaqların sağlamlığını hər şeydən üstün tutacaqlar. Nəinki qızlar, azyaşlı oğlanlar da erkən nigahın yaradacağı problemləri bildikdən sonra düşüncəli şəkildə bu addımı atmaqdan çəkinəcəklər. Sağlam təməllər üzərində qurulan hər bir ailə dövlətin və millətin böyük sərvətidir. Bu sərvətin artırılması və qorunub saxlanılması yolunda cəmiyyətin hər bir üzvü aktiv şəkildə iştirak etməlidir.

**Əsmər ƏHMƏDOVA,**
*ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin biologiya müəllimi*

# "Elmi-tədqiqatların əsasları: nəzəriyyədən təcrübəyə"



Naxçıvan Müəllimlər İnstitutunda magistrant, doktorant və gənc müəllim-tədqiqatçılar üçün "Elmi-tədqiqatların əsasları: nəzəriyyədən təcrübəyə" adlı təlim kursuna start verilib.

## Magistrant, doktorant və gənc müəllim-tədqiqatçılar üçün təlim kursuna start verilib

Naxçıvan Müəllimlər İnstitutunun təşkilatçılığı və "Naxçıvan" Universitetinin iştirakı ilə 15-22 noyabr tarixlərini əhatə edəcək təlim kursunun açılış tədbirində Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov və "Naxçıvan" Universitetinin rektoru Nurlana Əliyeva giriş nitqi ilə çıxış ediblər. Vurğulanıb ki, kursun keçirilməsinin əsas məqsədi dinləyicilərdə elmi-tədqiqat işlərinin yerinə yetirilməsi vərdişlərinin təkmilləşdirilməsi, nəzəri və tətbiqi istiqamətlərdə tədqiqat səriştələrinin formalaşdırılmasıdır. Təlim kursunun razılaşdırılmış tematik plan əsasında həyata keçirilməsi hər iki ali təhsil ocağının magistrant, doktorant və gənc müəllim-tədqiqatçılarının elmi-tədqiqat işləri haqqında bütöv təsəvvürünün yaradılmasına, elmi idrakın nəzəri və təcrübi metodları, elmi-tədqiqat fəaliyyətinin fərdi planlaşdırılması alqoritmi haqqında biliklərin aktuallaşdırılmasına, elmi-tədqiqat işlərinin həyata keçirilməsi hazırlığının artırılmasına və elmi-tədqiqat işlərinin tərtibi qaydaları ilə bağlı məlumatların sistemləşdirilməsinə kömək edəcəkdir.

Sonra Naxçıvan Müəllimlər İnstitutunun elmi katibi, dosent Qurban Qurbanlının "Elmin məqsədi, predmeti, əsas funksiyaları. Elmlərin təsnifatı" və "Naxçıvan" Universitetinin elmi katibi, dosent Əli Həşimlinin "Elmi-tədqiqat metodları: ümumelmi və xüsusi tədqiqat metodları" mövzularında təqdimatları əsasında ilk təlimlər keçirilib.

Kurs müddətində "Elmi tədqiqatın aparılması mərhələləri", "Elmi tədqiqatın nəticələrinin təqdimatı", "Elmi üslubun (mətnlərin) əsas janrları (ümumi xarakteristika)", "Elmi məruzə: hazırlanması və təqdimatı", "Monoqrafiya elmi mətnlərin əsas janrlarından biri kimi", "Dissertasiyaya və avtoreferata verilən tələblər" və s. mövzularda təlimlərin keçirilməsi planlaşdırılıb.



# SABAH qrupları Rusiyada teatr festivalında

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) SABAH qrupları Moskvada keçirilən QİTİS Master klass -4 teatr festivalında iştirak ediblər.

Qeyd edək ki, festival 8-13 noyabr 2021-ci il tarixlərində Moskva şəhərində canlı olaraq keçirilməli idi. Lakin mövcud pandemiya şəraitində festival onlayn formada təşkil olunub.

ADMİU SABAH qrupunun müəllim və tələbə heyəti festival çərçivəsində ustad dərslərində iştirak edib, digər festival iştirakçılarının tamaşalarını izləyib.

SABAH qrupları isə festivalda Azərbaycanı Sofoklun "Tiran Edip" tamaşası ilə təmsil ediblər. Tamaşanın bədii rəhbəri, Xalq artisti Mehriban Zəki, quruluşçu rejissoru Mikayıl Mikayılovdur.

Nümayişdən sonra müzakirə edilən tamaşanın quruluşu və aktyor heyətinin işi festival iştirakçıları və əcnəbi mütəxəssislər tərəfindən yüksək dəyərləndirilib.

## İsmayıl Məmmədli - 75

# Ruhən müəllim olan alim

## Azərbaycan dilçiliyinə, xüsusən də türkologiyaya xidmət edən araşdırmalar müəllifi

**Mən, filologiya üzrə elmlər doktoru, professor İsmayıl Məmmədlini otuz ildən çox olar ki, tanıyıram. Vaxtı ilə bizim institutumuzda Azərbaycan dilinin tədrisi metodikası şöbəsi fəaliyyət göstərirdi və ona mərhum professor Əziz Əfəndizadə rəhbərlik edirdi. Şöbədə mütəmadi olaraq Azərbaycan dili təliminin problemləri müzakirə olunurdu. Respublikamızın görkəmli dilçi alimləri, xüsusilə məktəblə bağlı olan linqvist alimlər bu tədbirlərdə iştirak edər, Azərbaycan dili təlimi məsələlərinin həllində öz köməklərini əsirgəməzdilər. İsmayıl müəllim də belə dilçi alimlərimizdən biri kimi həmişə şöbə ilə əlaqə saxlayardı. Professor Əziz Əfəndizadə İsmayıl müəllimi istedadlı dilçi alim kimi bizə misal çəkər, onun Azərbaycan dilinin müxtəlif problemləri ilə bağlı məsələlərdə təkcə mütəxəssis kimi deyil, həm də bir vətəndaş alim kimi iştirakını xüsusi qeyd edərdi.**



Doğrudan da, İsmayıl müəllimin o vaxtlardan yalnız dilçi alim kimi deyil, həm də dilin qorunması, inkişaf etdirilməsi, zənginləşməsi və geniş yayılmasında ictimai fəallığı aydın görünürdü. Elə onun nəticəsi idi ki, 1981-1990-cı illərdə on ilə yaxın bir dövrdə Azərbaycan Dövlət Teleradio Şirkətində "Azərbaycan dili" və "Dil xalqın mənəvi sərvətidir" (dünya azərbaycanlıları üçün) televiziya və radio proqramlarının təşkili və aparılması ona həvalə olunmuşdu. Bu verilişlər öz məzmunu və quruluşuna görə televiziya və radionun tarixində indi də xüsusi əhəmiyyəti olan verilişlər kimi xatırlanmaqdadır.

İsmayıl Məmmədli xarakter etibarı ilə səmimi və mehriban olduğu qədər də xalqın milli mənəvi atributlarından biri olan dili ilə sadəcə məşğul olmaq yox, ona daxilən bağlı olan, onu qəlbən sevən, daxili və zahiri gözəlliklərindən doymayan bir vətəndaş alimdir. Özünün qeyd etdiyi kimi, söz bir inci kimi həmişə gözlərim qarşısında bərq vurur. Onun sirləri sehirli bir qüvvə kimi məni həmişə valehedici bir gözəlliklə özünə doğru dartır. Bəlkə də, elə bu səbəbdəndir ki, onun elmi fəaliyyətinin, demək olar ki, əksər hissəsi Dilçilik İnstitutunun Lüğətçilik şöbəsi (indi Tətbiqi dilçilik şöbəsi) ilə bağlı olub. Akademik Əliheydər Orucov kimi müqtədir leksikoqraf alimin yaradıcılıq məktəbini uğurla davam etdirə bilib.

Müəllimim, mərhum professor Məmmədhüseyn Təhmasib deyərdi ki, lüğət ən etibarlı mənbədir, kimin kitabxanasında çox lüğət varsa, o kitabxana zəngindir. Bu mənada lüğətlər həm mötəbərdir, tədqiqatçıların tərəddüdsüz üz tutduğu, istinad etdiyi ədəbiyyatdır, həm də unikal bir yaradıcılıq nümunəsidir. Bu nümunələrdə lakonika ilə semantika mükəmməl bir strukturda birləşir. Canlı dilin sözlər aləmi bu məntiqlə sərgilənir. Belə araşdırmaları aparanlarda səbr, hövsələ, sözlərlə təmasa girəbilmə, onların ən incə məqamlarını belə unutmamaq, mənalandırmaq, daha aydın və anlaşıqlı bir dildə təqdim edə bilmək qabiliyyəti tələb olunur. Onlar həm də cəmiyyətin istək və arzularına yaxından bələd olmalı, lüğətlərdən istifadə edəcək böyük bir xalq ordusunun tələbatı qarşısında hesabatlı olmalarını dərk etməlidirlər.

Heç şübhəsiz, professor İsmayıl Məmmədlidə bütün bu keyfiyyətlər vardır. O, fəaliyyəti dövründə zaman-zaman Azərbaycan dilini tarixləşdirən, onun söz inciləri salnaməsini yaradan lüğətlərin hazırlanması işinə rəhbərlik etmiş və bilavasitə özü bu lüğətlərin həm müəllif, həm də elmi redaktor kimi məsuliyyətini daşımışdır. Nəticədə "Azərbaycan dilinin izahlı lüğəti", "Azərbaycan dilinin orfoqrafiya lüğəti", eləcə də frazeologiya, məcazlar və digər lüğətlər yaranmışdır.

Əgər biz, Azərbaycan dilçiliyinin sahələri ilə müqayisədə leksikoqrafiyada qədərincə araşdırmaların aparılmadığını nəzərə alsaq, o zaman sırf lüğətlərin yaradılması ilə bağlı görülmüş işlərin əzəmətini aydın təsəvvür edə bilərik.

İsmayıl Məmmədlinin əsas araşdırmaları Azərbaycan dilçiliyi üçün, xüsusən də türkologiya üçün çox önəmli hesab edilir. Bu tədqiqatlarda mühüm hesab edilən məsələlər – sahə leksikaları içərisində qədimlik, zənginlik, millilik, məhsuldar sözyaratma və üslubi imkanları ilə seçilən etnoqrafik leksikanın öyrənilməsi əhatə olunmuşdur. O, ilk dəfə olaraq sahə leksikaları üzrə monoqrafik yolla araşdırmalar aparmışdır. Azərbaycan dilçiliyində etnoqrafik leksika əsasında söz yaradıcılığının aparıcı mövqeyini aşkar etmiş, tematik, struktur-semantik, funksional-üslubi, sinxron, habelə etnik-kulturoloji, tarixi planda linqvistik təhlil aparmış, etnolinqvistikanı məktəb səviyyəsinə qaldırmışdır.

50 ilə yaxın bir yaradıcılıq yolu keçmiş İsmayıl müəllimin fəaliyyətinin mühüm istiqamətlərindən birini də pedaqoji sahədə gördüyü işlər təşkil edir. Əslində bu keyfiyyət fundamental elm sahəsində məşğul olan hər alimə qismət olmur. Nə zaman ki, akademik sahələrdə məşğul olanlar özlərində bir öyrətmək, məktəbdarlıq hissi duyurlar, o zaman fəaliyyətlərinə bir müəllimlik istiqaməti də əlavə edirlər. Professor İsmayıl Məmmədli də belə alimlərimizdəndir.

İsmayıl Məmmədli ruhən müəllimdir. Paralel olaraq özünün tədqiqatçılığı ilə yanaşı, müəllimliyini də davam etdirən alimdir. O, ali təhsil müəssisələrində "Müasir Azərbaycan dili", "Nitq mədəniyyətinin əsasları", "Türkologiyanın müasir problemləri", "Üslubiyyat", "Natiqlik sənəti", "Dilçiliyə giriş" fənlərindən, lisey və gimnaziyalarda isə Azərbaycan dili və ədəbiyyatdan dərslər aparır. Dərs dediyi ali təhsil müəssisələrində həmişə tələbə və şagirdlərinin məhəbbətini qazanan nüfuzlu müəllim kimi tanınır.

İsmayıl müəllim həm də təhsil müəssisələrinin, xüsusən Azərbaycan dili təliminin aktual problemlərinin həll olunmasında yaxından iştirak edir. O, əvvəllər Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun (indiki Azərbaycan Respublikasının Təhsil İnstitutu) nəzdindəki Azərbaycan dili fənni üzrə proqram, dərslik komissiyasının üzvü kimi fəaliyyət göstərmişdir. Eyni zamanda Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) hazırlayan işçi qrupunun üzvü kimi yeni kurikulumların hazırlanmasında iştirak etmişdir.

İsmayıl müəllim bu gün də həm bir dilçi alim, həm də pedaqoq, təhsillə əlaqəli bir mütəxəssis kimi fəaliyyətini davam etdirməkdədir.

Ona 75 illik yubileyi münasibətilə bu yolda cansağlığı, xoşbəxtlik, ailə səadəti və daha böyük yaradıcılıq uğurları arzulayıram.

**Ənvər ABBASOV,**
*Təhsil İnstitutunun direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim*

“Bütün Azərbaycan Nizami Gəncəvi ilə fəxr edir. Onun yaradıcılığı qədər insanlığın tərbiyəsinə, əxlaqına təsir edən müstəsna güc yoxdur”.

“Xalqımız, tariximiz nə qədər yaşayacaqsa Hüseyn Cavidin irsi də o qədər yaşayacaq və xalqımız ondan istifadə edəcək”.

Heydər ƏLİYEV, ümummilli lider

# Nizami Gəncəvi yaradıcılığında insan konsepsiyası



**Dahi Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığını öyrəndikcə həyat, kainat, cəmiyyət, təbiət, bir sözlə, elə bir sahə tapmaq olmaz ki, onun sirləri, mahiyyəti ilə bağlı müdrik düşüncələrin şahidi olmayasan. Bu nəhəng söz ustadının bütün irsinin mərkəzində insan, onun aliliyi, yüksək mənəvi ucalıq örnəyi nümunələrinin yaradılması onu təkcə öz xalqının deyil, ümumbəşəri sənətkar zirvəsinə ucaltmışdır. İstər lirik, istərsə də zəngin epik irsi ilə böyük ustad müxtəlif problemlərə fərqli həyati əhvalatları əsasında, rəngarəng insan obrazları vasitəsilə münasibət bildirmiş və onların həlli yollarına çalışmışdır.**

Bir sözlə, öz nəfsinə sahib olan,vəfalı, etibarlı, kinküdurətdən uzaq, dostluqda mötəbər, öz halal əməyi ilə yaşayan, başqalarına ehtiramla, bütün insanlığa sevgi, saygı ilə yanaşan qəlbi məhəbbətlə dolu insan məhz Nizami idealının, Nizami amalının əsas obyekti olmuşdur. Nizami irsinin tədqiqatçılarından olan professor X.Əlimirzəyev bu böyük zəngin irs haqqında yazırdı: “Bu nəhəng söz və sənət korifeyinin yaradıcılığı nadir hadisədir, Tanrının və təbiətin insanlığa bəxş etdiyi möcüzədir. Möcüzə isə hikmətdən gələn bir sirr olduğu üçün onu tam və hərtərəfli açmaq, öyrənmək, şərh etmək müşkil məsələdir”.

Bu yazımda dahi sənətkarın yaradıcılığında əks olunan pedaqoji görüş, əxlaq, etik mədəni davranışla bağlı düşüncələrimi bölüşmək istərdim. Azərbaycan pedaqoji fikir tarixində Nizami Gəncəvinin xidməti əvəzsizdir. Bütün əsərlərinin, yaradıcılıq idealının əsasını təşkil edən tərbiyə və onun ən kiçik detallarını müxtəlif həyati materiallardan götürüb obrazların dili ilə kamilləşdirən ustad sənətkar ilk öncə tərbiyəyə gedən yolun gövhərini ağıl, idrakla bağlayır. Ağıl, idrak isə zəngin elmi biliklərlə əldə edilir. Hər bir kəs kamillik yoluna müxtəlif elm sahələrinə aid bilgilərlə çıxa bilər. Dövrünün bütün elmlərini mükəmməl bilən dahi söz ustadının söz xəzinəsi təkcə ədəbiyyatın yox, bütün elmlərin tədqiqat obyekti olması təsadüfi deyil:

*Dünyada nə qədər kitab var belə,*
*Çalışıb, əlləşib gətirdim ələ...*
*...Oxudum,oxudum sonra da vardım,*
*Hər gizli xəzinədən bir dür çıxardım.*

Dahi sənətkarın istər qəzəllərində, istərsə də rübailərində əxlaqi-tərbiyəvi, nəsihətamiz fikirlər diqqəti cəlb edir:

*Yəmən ərəbinin baxdım qəbrinə,*
*Çıxarıb bir kəfən o verdi mənə.*
*Dedi ki, gülmə sən səxavətimə,*
*Dünyadan köçərkən bu çatıb mənə.*

Bu misralarda gənc nəslə gözütoxluq, insan ömrünün əbədi olmadığı və yalnız bu dünyada yaxşı əməllər sahibi olması kimi dəyərlər aşılayan şair qəzəllərində də vəfa, etibar, sədaqət keyfiyyətlərinin önəmli olmasını, insanın dəyərinin onun nəcabəti, idrakı ilə ölçülməsi fikrini tərənnüm etmişdir.

Lirik əsərlərində irəli sürdüyü düşüncələr onun epik yaradıcılığında daha da dərinləşdirilmiş və konseptual bir mahiyyət kəsb etmişdir. İlk poeması “Sirlər xəzinəsi”ndən başlayaraq sənətkar sonralar bütün yaradıcılıq idealına işıq salan əxlaqi, estetik düşüncənin təməlini qoymuşdur. Burada əxlaqi-mənəvi dəyərlərə münasibət bildirən dahi mütəfəkkir müxtəlif mövzulu hekayələrdə öz fikirlərini real səhnələrlə əyaniləşdirib sübuta çalışmışdır. “Yaralı uşağın dastanı” hekayəsində yoldaşı öz yaralı dostunu quyuya atmaqla “onu gözləyən təhlükədən” bunu çıxış yolu hesab edir. Əslində isə bunun arxasındakı ən böyük təhlükəni: Yalan danışmağın acı aqibətini, bir insan ömrünün məhvinin doğurduğu fəlakəti görməyən gənclərə üzünü tutan sənətkar həmişə çətin məqamlarda hisslə deyil, ağılla çıxış yolu axtarmağın vacibliyini diqqətə çatdırır . “Kərpickəsən kişinin dastanı” hekayəsində isə: Əməkçi insanın simasında heç kimdən asılı olmamaq, fikirləşib danışmaq kimi pedaqoji-əxlaqi keyfiyyətləri təbliğ edir.

“Xosrov və Şirin” poemasında insanın mənəvi təkamülündə sevginin rolunu göstərən sənətkar əsl insani münasibətlərin məhz qarşılıqlı inam, hörmət, sevgi üzərində qurulduğunu ifadə edərək Şirinin simasında mənəvi dəyərlərə məhəbbət aşılayır.

“Leyli və Məcnun” poemasının əvvəlində oğlu Məhəmmədə nəsihət edən şair burada elm, onun əhəmiyyəti haqqında fikirlərini vurğulamaqla peşə seçimində diqqətli olmağı, hər bir işi mükəmməl bacarmağı, kamal, elm sahibi olmağı məsləhət görərək həyatda ucalığın yeganə yolunun məhz yüksək idrakdan keçdiyi məramını ifadə etmişdir. Nizami bu əsərində məktəblə bağlı da maraqlı məqamlara toxunmuşdur. Orta əsrlərin mühafizəkar qanunlarından fərqli olaraq ustad sənətkar dünyəvi bir məktəb mühiti ilə bağlı görüşlərini qələmə almışdır: bu məktəbdə qızlarla oğlanlara fərq qoyulmadan eyni bir məkanda təhsil alması insanların arasındakı ayrı-seçkilik, qadının hüquqlarının müdafiəçisi kimi sənətkar yanaşması dərin rəğbət doğurur. Poemada maraqlı məqamlardan biri “Şah və xidmətçi” hekayəsidir ki, Nizami adi xidmətçinin dili ilə şər əməlləri tənqid edərək sədaqət, vəfa kimi keyfiyyətlərin əbədiliyini ifadə etmişdir.

“Yeddi gözəl” poemasında yeddi qızın dilindən söylənilən hər bir hekayə də ibrətamiz, tərbiyəvi, öyrədici mahiyyəti ilə müdriklik ifadə edir. “Xeyir və Şər” hekayəsində insan xislətindəki kin, paxıllıq hissinin ona gətirdiyi fəlakəti Şərin simasında ümumiləşdirən dahi mütəfəkkir hər kəs əməlinə uyğun qismətini alır ideyasını ifadə etməklə yetişən nəsildə bu kimi keyfiyyətlərdən uzaq durmaq tələb olunur. Bəhramın təbiətindəki biganəliyn onun ağır fəlakətlərlə nəticələnməsini ustalıqla verən ədib hər bir insana daim ayıq olmasını, heç zaman öz ayıqlığını itirməməsini tövsiyə edir. Burada Bəhramın müəllimi, ona müxtəlif dillər öyrədən Mənzərin simasında Nizaminin əsl müəllim idealı, müəllim haqqında düşüncələri əks olunmuşdur. “İsgəndərnamə”də isə dahi ədib bütün yaradıcılığı boyu qarşısına qoyduğu yaradıcılıq idealını ümumiləşdirmişdir. Dünya fatehi İskəndər obrazı ilə sənətkar öz arzuladığı ideal insan obrazını yaratmışdır. Niqumaş kimi alim-müəllimdən təhsil alan, hər bir çətin anında sinif yoldaşı Ərəstu ilə məsləhətləşən İskəndərin uğur yolu məhz ustadlarına olan inamın nəticəsi idi. Öz müəlliminin nəsihətlərini uca tutan İskəndər ömrünün sonunda da müxtəlif xalqların təfəkkür xəzinəsi olan kitabları yunan dilinə çevirməklə elm adamlarını, dahi filosofları ətrafına cəmləşdirməklə insanlığın zəka qüdrətinin böyük qoruyucusu kimi nüfuz qazanmışdır.

Nizami yaradıcılığında müxtəlif obrazlar qalereyasında qadın qəhrəmanlar da öz novator keyfiyyətləri ilə diqqəti cəlb edir. Yetişən gəncliyə nümunə olan bu qadınlar mənəvi dünyalarının ucalığı, zənginliyi, vəfalı, etibarlı, cəsur təbiətləri ilə örnək olacaq bir əxlaq, tərbiyə məktəbidir. Şirin nəinki öz sadiqliyi, mənəvi dönməzliyi ilə həm də çövkan oyununun mahir ustası, dövlət idarəçiliyində əsl səriştə nümayiş etdirən təbiətilə qadını cəmiyyətin fəal üzvü kimi yüksək ideallıqla təmsil edir.

*Əhsən bu ölümə, əhsən Şirinə!*
*Öldürən Şirinə, ölən Şirinə* - deyə onu alqışlayan filosof şair əsl insanlığın təkcə cismlə deyil, mənəvi ucalıqla ölçüldüyünü ifadə etmişdir.

Nizami yaradıcılığı bitib-tükənməyən bir xəzinədir. Bu xəzinənin qapısından daxil olmağı bacaran oxucu onun sehrindən sadəcə heyrətlənməyə bilmir. Nizami dühası yetişən nəslin tərbiyəsində əvəzsiz örnək kimi əsrlərdən bəri süzülüb gəlir. Məhz dahi şəxsiyyətin zəngin irsinin bəşəriyyət, yetişən nəsil üçün önəminin mahiyyətindən irəli gələrək Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2021-ci ili “Nizami İli”elan etməsi təsadüfi deyildir. Hər birimiz bu nəhəng korifeyin söz xəzinəsindən bəhrələnsək və bunu yetişən nəslə aşılaya bilsək, dünyamızı xeyirli, nurlu əməllərimizlə işıqlandırar, qəlblərdə mərhəmət, ləyaqət, humanizm alovları şölələndirməklə bəşər cəmiyyətindən pisliklərin, şər əməllərin xilasına xidmət etmiş olarıq.

**Bikə ALLAHVERDIYEVA,**
*Abşeron Rayonu İlqar Yusifov adına Görədil kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi, “Ən yaxşı müəllim”, “Ən yaxşı pedaqoji mühazirə”nin qalibi*

# Hüseyn Cavid müəllim və məktəb haqqında



**Həyatını millətinin, xalqının səadəti yolunda sərf edən, özünü bu yolda qurban verən insanlar əbədiyyət qazanırlar. Azərbaycan ədəbiyyatında mənzum dramaturgiyanın banisi, görkəmli romantik sənətkar, dünya şöhrətli dramaturq Hüseyn Cavid kimi. Onu yeni epitetlərlə təqdim etməyə heç bir ehtiyac yoxdur. Bədii əsərlərində əks olunmuş fikirlər onu oxucu və tamaşaçıları ilə ünsiyyət zamanı daim ucada saxlayır, Cavid sevərlərin sayını artırır, yeni-yeni nəsilləri onunla görüşdürür. Belə görüşlər nəticəsində bu qeyri-adi sənətkarın düşüncəsinin yeni qatları üzə çıxır, izləyicilərini öz arxasınca çəkib aparır.**

Bizim də bu yazıdakı qeydlərimiz şair, filosof və müəllim H.Cavidin məktəb, xalqın maariflənməsi, təhsil, tərbiyə və s. məsələlərlə bağlı görüşlərinə əsaslanır. H.Cavid müəllim idi. Bir müddət Bakı Dövlət Universitetində, sonralar isə Bakı Teatr Texnikumunda pedaqoji fəaliyyət göstərmişdir. Uşaq yaşlarından elmin, maarifin çətin yollarından keçməsi, mükəmməl təhsil alması zaman keçdikcə onu bu sahəyə dair qiymətli fikirlərin müəllifi kimi tanıdırdı.

Məşhur tənqidçi, ədəbiyyatşünas və gözəl müəllim Abdulla Surun (Abdulla Məmmədzadənin) vəfatı ilə bağlı məqaləsində yazırdı: “Müəllim nədir? Yaponiyanın qəyur və qəhrəman milləti Mikadonun şərəfinə deyil, Yaponiya müəllimlərinin şərəfinə idareyi-əqdah etdilər... Onlarca *(onlara görə - H.Ş.)* Yaponiyanın tərəqqisi, oyanıqlığı həp, həp müəllimlər sayəsində olmuşdur. Almaniyada da hakəza (prins Bismark) bütün alman ünsürünün tərəqqisini müəllimlərdə görür və onlardan bəkləyir”.

20-ci əsrin əvvəllərində deyilmiş həmin qiymətli fikirlər bir əsrdən sonra da milli inkişaf naminə müəllimlərin üzərinə düşən vəzifələrin nə qədər ciddi olduğunu göstərir. Böyük maarifçi bununla Azərbaycan (türk) balalarının tərbiyəsi, millətin dirçəlişi və tərəqqisi məsələsində onları həmin məsuliyyəti dərk etməyə çağırırdı.

Müəllim, Cavid əfəndiyə görə, hər cür diqqətə və hörmətə layiq olan insandır. Müəllim şərəfli bir şəxsiyyətdir. Cəmiyyət onun qayğısına qalmalı və ağır əməyini qiymətləndirməlidir. Müəllim haqqında düşüncələrini qələmə alarkən H.Cavid tarixə müraciət edir. O, müasirlərinin və oxucularının nəzərini maraqlı faktlara cəlb edir: Abbasi xəlifələrindən Harun ər-Rəşid ölkəsinə bir riyaziyyat və hikmət müəllimi gətirməkdən ötrü Bizansla müharibə etmiş, qalib gəldikdən sonra təzminat kimi həmin müəllimi tələb etmişdir. Böyük sənətkar bu fakta toxunmaqla müasirlərinə, valideynlərə, dövlət və ictimai təşkilatlara müraciət edərək müəllimləri qayğı və diqqətlə əhatə etməyi tövsiyə edirdi. Öz zəmanəsində müəllimlərin həyat tərzi, sosial-iqtisadi vəziyyəti haqqında publisistik yazılarla dəfələrlə çıxış edirdi. Həyatını millətin xoşbəxtliyi və səadəti üçün sərf edən müqəddəs peşə sahiblərinə diqqət göstərməyə çağıran həyəcan dolu yazılarından birində ictimaiyyətə ünvanlanmış emosional ruhlu müraciətlərindən biri aşağıdakı kimidir:

“Əfəndilər! Möhtərəm qarelər!

Müəllimlərə hörmət ediniz, onları seviniz, onları çox böyük görün, əvət, onları özünüzə əfəndi biliniz!..”.

H.Cavidə görə, müəllim qeyri-adi bir şəxsiyyətdir. O, müqəddəs bir işlə-insanların təlim-tərbiyəsi ilə məşğuldur.Onlar daim hörmətlə qarşılanmalı, uca tutulmalıdır. O, məqalə və çıxışlarında müəllimlərin də qarşısında müəyyən tələblər qoyurdu. Müəllim hazırlığında şəxsi çalışmaların roluna çox böyük əhəmiyyət verirdi. Maarifpərvər ziyalı Qurbanəli Şərifzadənin ölümü münasibətilə yazdığı nekroloqdan götürdüyümüz aşağıdakı sətirlər bunu bir daha təsdiq edir: “O, *(Qurbanəli Şərifzadə nəzərdə tutulur-H.Ş.)* məktəb görməmişdi, fəqət həvəskar bir alim idi, böyük bir müəllim idi, camaat müəllimi idi. Həm də müəllimlərdən artıq məlumata malik idi. Heç bir mədrəsə təhsili görmədiyi halda mərhum öz himmət və qeyrətilə, öz səbat və mətanətilə türkcə, rusca, farsca oxuyur, yazırdı”.

Ədib Naxçıvanda “Məktəbi-tərbiyə”də oxuyarkən dərs aldığı böyük maarifçı M.T.Sidqiyə sonralar yazdığı məktublarında da öz müəlliminə böyük ehtiramla yanaşır, onu “böyük ustad”, “cəlallı atamız”, “izzətli başçı” adlandırırdı.

O, təlim-tərbiyə prosesində müəllimin əvəzsiz rolundan danışarkən belə bir fikrə gəlir: “Ciddi müəllim çox şərəfli, çox böyük bir simadır”. Bu fikir nəinki öz dövründə, həm də bütün zamanlar üçün müəllim hazırlığında öz dəyərini saxlayan əsas məsələlərdən sayılır.

H.Cavid pedaqoji qeydlərinin başqa birində müəllim haqqında düşüncələrini ümumiləşdirərkən belə bir maraqlı fikir irəli sürür: “Hər bir məsələdə olduğu kimi, təlim-tərbiyə üçün də hər müəllimdə azacıq istedad lazımdır”. Göründüyü kimi, bu mülahizə hazırda müasir və müstəqil Azərbaycanımızın təhsil qurucuları olan müəllimlər üçün daha zəruri olan bir keyfiyyəti əks etdirir. Müəllim şagird dünyasına daxil olmağı bacarmalı, şagirdin hiss və həyəcanlarını duymalı və düzgün istiqamətləndirməlidir. Şagirdə təlim əməyini sevdirməlidir, onu bu prosesə alışdırmalıdır. Bundan ötrü isə müəllimdən, doğrudan da, gərgin zəhmət, müəyyən istedad tələb olunur. Bu ağır və zəhmətli işə tab gətirmək üçün o, müəllimlərə çağırış edirdi:

“Ey müəllimlər! Ey möhtərəm əfəndilər! Sizlər, sizlər əsla millətimizin bu etinasızlığına etina etməyiniz. Daima çalışın, çapalayın! Millət, vətən uğrunda canınızdan keçmək belə icab etsə, seçiniz!..

Cənab - həqq çalışanların, fədakarların hamisidir. Əsla məyus olmamalı!” *(“İqbal” qəzeti, 18 may 1912-ci il).*

H.Cavidin pedaqoji fikirlərini əks etdirən əsərlərində məktəbin maddi-texniki bazası, quruluşu, şəraiti, sağlamlığa yararlılığı və s. məsələlərlə bağlı qeydlərə də rast gəlmək olar:

“Məktəblər səhhəti ixlal etməyəcək dərəcədə havalı yerlərdə yapılmalıdır. Pis, üfunətli yerlərdən uzaq olmalıdır. Xəstəxana, həbsxana, məzarıstan kimi yerlərə yaxlaşmamalıdır... Məktəb binası mümkün dərəcədə günəş yerlərdə vaqe olmalı, rütubəti çox olan yerlərdən həzər edilməlidir”.

Ədib “Həsb-hal” başlıqlı məqalələrindən birində yazırdı:

“Bir millətin tərəqqi-tədənnisini bilmək üçün millətin məktəblərini, daha doğrusu, ibtidai məktəblərini görmək kifayət edər. Avropaya meydan oxuyan Almaniyanın, qoca Rusiyanı həyəcana düşürən Yaponiyanın bütün tərəqqiyyati-ciddiyyələri həp ibtidai məktəblər sayəsindədir”.

Öz millətini, ölkəsini dünyanın qabaqcıl ölkələri ilə bir sırada görmək istəyən böyük sənətkarın ən böyük arzularından biri də milli məktəblərimizin möhkəm əsaslar üzərində qurulmasından, ibtidai təhsilin təməl daşı olaraq möhkəm təşkilindən ibarət idi.

Müəllim-şagird münasibətləri H.Cavidin yaradıcılığında çox diqqət yetirilmiş məsələlərdən sayılır. Bu məsələ ədibin bədii əsərlərində diqqətəlayiq bir şəkildə öz əksini tapmışdır, məqalə və məktubları isə məsələyə münasibətdə ədibin baxışlarını öyrənməkdə zəngin material verir. Bu baxımdan “Qız məktəbində” şeiri çox maraqlıdır. Şeirdə şagirdi ilə son dərəcə mehriban, həlim, səmimi bir dillə danışan, müdrik bir insan təsiri bağışlayan müəllim:

- Quzum, yavrum! Adın nədir?

- Gülbahar... - tanışlığı sayəsində məktəbdən şəfqət və hərarət duyan bir uşaqla məhəbbətini bölüşür. Belə diqqət və qayğıdan sonra şagirdin müəlliminə necə bağlanacağını təsəvvür etmək çox asandır. Bunu zəngin ailədən olan qızcığazın cavabları, qarşılıqlı hörmət və təvazökarlığı, valideynlərinə hörmət və ehtiramı da sübut edir.

Bu əsərdən belə bir nəticəyə gəlirik: Uşaq qəlbinə, uşaq dünyasına öz məhəbbəti ilə daxil olmuş müəllimin suallarındakı mülayimlik, deyim tərzindəki mehribanlıq şagirdlə müəllim arasında qırılmaz bir bağlılıq yaratmışdır.

Uzun illər ərzində müxtəlif zamanlarda qələmə aldığımız pedaqoji məzmunlu məqalələrimizin əsas qayəsi bundan ibarət olmuşdur ki, millətin taleyi onun məktəbindən keçir. Məktəblərimizin möhkəm milli və bəşəri əsaslar üzərində qurulması üçün isə eyni zamanda klassik irsimizə dərindən bələd olmalıyıq. Ulu sənətkarımız Hüseyn Cavidin bəzi pedaqoji düşüncələrini araşdırmaq istəyimiz də həmin zərurətdən irəli gəlmişdir.

**Hüseyn ŞAHBƏNDƏYEV,**
*Əməkdar müəllim*

# Quba məktəblisinin uğuru

## Uşaq-gənclər idman-şahmat məktəbinin yetirməsi Avropa çempionu olub



12-15 noyabr 2021-ci il tarixlərində taekvondo idman növü üzrə Bosniya və Herseqovinada gənc taekvondoçular arasında Avropa birinciliyi keçirilib. Birincilikdə Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən uşaq-gənclər idman-şahmat məktəblərindən Azərbaycan yığma komandasının tərkibində 5 nəfər idmançı mübarizəyə qoşulub.

Yarışda iştirak edən Quba rayon ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman-şahmat məktəbinin idmançısı Səyyad Dadaşov 51 kq çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək Avropa çempionu olub.


"AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74

**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 7976 **Sifariş** 2362

**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Cəmşid Naxçıvanski** adına Hərbi Lisey tərəfindən 1997-ci ildə Əliyev Elşən Rəhman oğluna verilmiş A-195361 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 33 nömrəli tam orta məkktəbi 2005-ci ildə bitirmiş Həsənova Fəxrəndə Eldar qızına verilmiş B-220504 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** N.Nərimanov adına 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Nəsrullayeva Aygün Fizuli qızına verilmiş B-264358 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 26 nömrəli tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Əsədov Samir Musa oğluna verilmiş A-415508 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Hil kənd tam orta məktəbin axşam-qiyabi sinfini 1998-ci ildə bitirmiş Muradova Pərvanə Ağabala qızına verilmiş A-254572 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 16 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Əliyeva Aysel Alim qızına verilmiş A-669301 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir Tibb Məktəbi** tərəfindən 2001-ci ildə Hüseynova Ülviyyə Ramiz qızına verilmiş AB-II-093589 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sədərək rayon** Sədərək kənd 1 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Zamanova Afət Ələsgər qızına verilmiş B-472504 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Plan İqtisad Texnikumu (Bakı Dövlət İqtisad Sosial Kolleci)** tərəfindən 1998-ci ildə Mustafayev Cavid Xalid oğluna verilmiş AB-II-037904 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 100 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Zeynalov Şamil Nazim oğluna verilmiş A-112343 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qərbi Kaspi Universiteti** tərəfindən 2021-ci ildə Amanov İsmayıl Nazim oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Məktəbi** tərəfindən 1982-ci ildə Sultanova Natiqə Məmmədağa qızına verilmiş DT-I-762369 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** T.Abbasov adına 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Bəxtiyarova Şəbnəm Novruz qızına verilmiş B-355418 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Laçın rayonu** 12 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Mirişov Orxan Rauf oğluna verilmiş A-610833 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kənd Təsərrüfatı İnstitutu** tərəfindən 1980-ci ildə Rəhimov Vaqif İnqilab oğluna verilmiş 424153 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Allahverdiyeva Nübar Vüqar qızına verilmiş A-129114 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəbi 1990-cı ildə bitirmiş Məmmədova Arzu Məmməd qızına verilmiş 657014 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Fərzili kənd ümumi orta məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Rzayev Xalid Rəfail oğluna verilmiş A-334475 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 8 nömrəli məktəb-liseyin IX sinfini 2010-cu ildə bitirmiş Ağazadə Aygül Müşviq qızına verilmiş A-005694 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 16 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Səfərov Yusif Tahir oğluna verilmiş E-023236 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 156 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Məmmədzadə Nərmin Qayib qızına verilmiş A-095545 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2001-ci ildə Əliyeva Sevinc Balaş qızına verilmiş A-039585 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**"Hədəf liseyi" MMC** tərəfindən 2020-ci ildə Qədimli Ərtoğrul Araz oğluna verilmiş C-428478 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 286 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Hacızadə Rövşən Rəşad oğluna verilmiş B-690123 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Qarakazımlı kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Məstəliyeva Günel Yadigar qızına verilmiş 034381 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qax rayon** Qaratala kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş İsmayılzadə Babək Səmayil oğluna verilmiş 174600 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** İ.Məmmədov adına 228 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Verdiyeva Gülnarə Baxşalı qızına verilmiş B-032533 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2015-ci ildə Nəsirov Rüfət Zakir oğluna verilmiş A-068857 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2000-ci ildə Həşimova Ləman Vahid qızına verilmiş A-043292 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 42 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Salmanova Nuridə Fərhad qızına verilmiş A-221230 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 6 nömrəli tam orta məktəb-liseyin IX sinfini 2011-ci ildə bitirmiş Məmmədova (Qasımzadə) Aytən Firuz qızına verilmiş A-126473 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Gəqiran kənd tam orta məktəbinin IX sinfini 1993-cü ildə bitirmiş Əsədullayeva (Axundova) Kamilə Aşur qızına verilmiş A-022581 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Nərimanabad kənd tam orta məktəbi 1998-ci ildə bitirmiş İsmayılov Əli Tarverdi oğluna verilmiş A-159260 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Şağlakücə kənd tam orta məktəbi 1999-cu ildə bitirmiş Cəbiyev Nüsrət Yaşar oğluna verilmiş A-332354 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** Z.Bünyadov adına 3 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Zəkəryayev Kənan Sənan oğluna verilmiş A-332414 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Astara Pedaqoji Kolleci** tərəfindən 2009-cu ildə Əkbərova Aytac Nazim qızına verilmiş BB-II-085072 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Mahmudavar kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Qafarova Sülhiyyə Allahverdi qızına verilmiş 104374 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** S.Xəlilov adına Qızılağac kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Əsgərov Azad Valeh oğluna verilmiş A-509776 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Adnalı kənd tam orta məktəbi 1992-ci ildə bitirmiş Əhmədova (Mürşüdova) Məleykə Ataxan qızına verilmiş A-274030 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qərbi Kaspi Universitetinin Kolleci** tərəfindən 2019-cu ildə Davudlu Mir Yaqub Xasay oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2021-ci ildə Fərəcov Səyyad Polad oğluna verilmiş C-105996 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Nabran kənd tam orta məktəbi 2009-cu ildə bitirmiş Vəlixanov Mair Vəlixan oğluna verilmiş B-619606 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Uludaş kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Şərifov Əhəd Partizan oğluna verilmiş 068018 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2015-ci ildə İsayev Nurlan Rizvan oğluna verilmiş A-052469 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Kimya Texnologiya Texnikumu** tərəfindən 1992-ci ildə Hüseynova İsmət Şəmistan qızına verilmiş PT-I-092636 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2020-ci ildə Paşayev Fariz Abuxan oğluna verilmiş C-060116 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbi (indiki Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci)** tərəfindən 1984-cü ildə Əliyev Abdulqəni Zəhmət oğluna verilmiş ET-016647 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2012-ci ildə Mustafa Gürlek Atif oğluna verilmiş BC-I-020529 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kolleci (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci)** tərəfindən 2012-ci ildə Ağazadə Aydəniz Rasim qızına verilmiş AA-010980 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Nehrəm kənd 1 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Səfərova Lətifə Əyyub qızına verilmiş A-154759 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan müəllimi" qəzetinin kollektivi iş yoldaşları Şakir Cəfərova baldızı

**ROZA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bərdə Rayon Təhsil Şöbəsinin müdir əvəzi Ədalət İsmayılov və Metodik Kabinetin əməkdaşları Vəfa Abdullayevaya atası

**HƏMİD ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin huznlə başsağlığı verirlər.

---

İdrak liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin direktor müavini Nuriyə Allahverdiyevaya atası

**RAFİZ ALLAHVERDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İdrak liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin müəllimi Aidə Rufiyevaya qayınatası

**FƏRMAN CƏFƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İdrak liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin müəllimi Nisə Hüseynovaya nənəsi

**TAMAM BAĞIROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İdrak liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin müəllimi Tutu Orucovaya anası

**SƏNUBƏR ORUCOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**İdman məktəblərimiz**

# Düzgün istiqamət, yüksək nəticə




**Təhsil Nazirliyi “Təhsil” Respublika İdman Mərkəzinin 1 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbi 1989-cu ildə yaradılıb. Məktəb yaradıldığı vaxtda 11 idman növü ilə fəaliyyət göstərmişdir. İdman məktəbində hazırda 8 bölmə - ağır atletika, cüdo, stolüstü tennis, boks, üzgüçülük, yunan-roma güləşi, sərbəst güləş və atletika bölməsi üzrə idmançılar yetişdirir.**

## “Təhsil” Respublika İdman Mərkəzinin 1 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin uğur salnaməsi

Məktəbin direktoru, keçmiş boksçu, yeniyetmələr arasında dünya çempionu Fərhad Eldar oğlu Acalovla görüşüb İdman Məktəbi barədə ətraflı məlumat öyrəndik. Fərhad müəllim də bu idman məktəbinin yetirmələrindən olub. O, ilk təhsilini Dağıstan Dövlət Universitetinin hüquq fakültəsində alsa da, idmana olan sevgisi onu ikinci idman təhsili almağa sövq edib. Belə ki, o, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına qəbul olub, təkmübarizlik idman növü üzrə ixtisasa yiyələnib. 11 qat Azərbaycan çempionu, 25 dəfədən artıq “A” kateqoriyalı beynəlxalq turnirlərin qalib və mükafatçısı olmuş Fərhad Acalov “Əməkdar idman ustası” və “Əməkdar məşqçi” fəxri adlarına layiq görülüb.

Fərhad müəllim müxtəlif idman növləri üzrə idmançılar və məşqçi-müəllimlər haqqında söhbət açıb: “İdman məktəbində ağır atletika üzrə 5 məşqçi-müəllim 7 qrup 40, cüdo bölməsində 10 məşqçi 15 qrup 148, stolüstü tennisdə 6 məşqçi 6 qrupda 39, boks üzrə 18 məşqçi 24 qrupda 146, üzgüçülükdə 2 məşqçi 5 qrupda 28, yunan-roma güləşi bölməsində 13 məşqçi 20 qrupda 196, sərbəst güləş üzrə 10 məşqçi 12 qrupda 113, atletika bölməsində 5 məşqçi 7 qrupda 50 idmançı ilə fəaliyyət göstərir. Ümumiyyətlə, məktəbdə 760 idmançı məşğul olur. Göstərilmiş idman növləri üzrə üzgüçülükdən başqa 7 bölmə ixtisaslaşdırılmışdır. Məktəbdə 69 məşqçi-müəllim çalışır ki, bunlardan 3 nəfər Əməkdar bədən tərbiyəsi və idman xadimi, 24 nəfər Əməkdar məşqçi, 4 nəfər Fəxri bədən tərbiyəsi və idman işçisi, 38 nəfər isə 1-ci kateqoriyalı məşqçilərdir.

Məktəbdə 4 təlimatçı-metodist və bir dərs hissə müdiri fəaliyyət göstərir. Burada fəaliyyət göstərən 8 bölməyə təhkim olunmuş təlimatçı-metodistlər vaxtaşırı qruplara metodiki və praktiki köməklik məqsədi ilə baxışlar keçirirlər: “Əgər məşq prosesində müəyyən nöqsanlar ortaya çıxarsa, bölməyə təhkim olunan metodist tərəfindən köməkliklər göstərilir, həmin məsələlər pedaqoji şuranın iclasında müzakirəyə çıxarılır və müvafiq qərarlar qəbul olunur. Tədris ili boyu məktəbdə fəaliyyət göstərən bölmələrdə məşqçilər şurası ayda bir dəfədən az olmayaraq öz iclasını keçirir və lazım gəldikdə bəzi məsələləri pedaqoji şuranın iclasında müzakirəyə qoyur. İdman məktəbinin məşqçi-müəllimləri yeniyetmə və gəncləri məşqlərə cəlb etmək üçün orta məktəblərə gedərək fiziki tərbiyə dərslərində hər bir idman növü üzrə idmançılarla söhbətlər aparır, uşaqlarda idmana həvəs oyadır, onların asudə vaxtlarını səmərəli keçirmələri və zərərli vərdişlərdən uzaq olmaları üçün məşqlərə cəlb edirlər. Hər bir uşaq idmana gələrkən ilk öncə sağlamlıq haqqında arayış təqdim edir və məşqlərə başlayır.





## Məktəbin tanınmış idmançıları

İdman məktəbinin yetirmələri arasında tanınmış idmançıların da olması bizi sevindirdi. Onlarla söhbət zamanı bildirdilər ki, uğurların əldə olunmasında idman məktəbinin və müəllimlərinin rolu böyükdür. Boks bölməsinin yetirmələri Ağayev İlkin Hüseynağa oğlu və Abdullayev Məhəmməd Zahid oğlu Avropa, Dünya çempionat və birinciliklərində yüksək nəticələr göstərmişlər. İlkin Ağayev 1988-ci ildə Lənkəran şəhərində anadan olub. 2000-ci ildən idmanın boks növü ilə məşğul olmağa başlayıb. İlk dəstəyi valideynlərindən alıb. O özü və idmanda əldə etdiyi uğurları haqqında bunları əlavə edib: “Mənim boksda uğurlar qazanmağımda Təhsil Nazirliyi “Təhsil” Respublika İdman Mərkəzinin 1 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin və məşqçi-müəllimlərimin müstəsna xidmətləri vardır. Hal-hazırda həmin məktəbdə məşqçi-müəllim kimi fəaliyyət göstərirəm. Çalışacağam ki, mənim də yetirmələrim yaxşı nəticələr əldə edib uğurlar qazansınlar. Uğurlarıma gəldikdə isə 2006-cı il Albaniyanın Tirana şəhərində keçirilmiş Avropa birinciliyində II, 2006-cı ildə Türkiyənin İstanbul şəhərində Dünya birinciliyində II, 2007-ci il Macarıstanda Avropa birinciliyində II, 2007-ci il Bakı şəhərində Dünya birinciliyində I yer, 2013-cü ildə isə kişilər arasında Dünya kubokunda III yerə layiq görülmüşəm”.

Abdullayev Məhəmməd Zahid oğlu 1999-cu ildə Bakı şəhərində anadan olub. Uşaq yaşlarından boksa böyük həvəsi onu peşəkar idmana gətirib: “Hal-hazırda məşqlərimi davam etdirirəm. Əldə etdiyim uğurlarda idman məktəbinin boks bölməsinin məşqçi-müəllimləri, xüsusilə əmim Abdullayev Etibar Başcil oğlunun əziyyəti çox böyükdür. Bundan sonra da böyük nəticələr göstərməklə üzərimdə zəhməti olan məşqçi-müəllimlərimi sevindirməyə çalışacağam. 2012 və 2014-cü illərdə Avropa çempionatlarında III, 2015-ci il Dünya çempionatında, 2017-ci il Avropa çempionatında I, 2019-cu il Dünya çempionatında I yerin qalibi olmuşam.

İdman məktəbinin digər tanınmış idmançısı Sabir Cəfərov 2003-cü ildə Bakı şəhərində anadan olub. Lap kiçik yaşlarından sərbəst güləş idman növü ilə məşğul olmağa başlayıb: “Valideynlərim və məşqçi-müəllimlərim birlikdə mənə hər zaman dəstək olublar. Məşqçi-müəllimlərimdən Namiq Quliyevin üzərimdə əziyyəti çox böyükdür. Mən bu gün yarışlarda əldə etdiyim nəticələrə görə Namiq müəllimə sonsuz minnətdaram. Hər bir idmançı kimi mənim də mötəbər yarışlarda iştirak etməyim üçün məktəb rəhbərliyi və kollektivin böyük dəstəyi olmuşdur. 2019-cu ildə İtaliyanın Faenza şəhərində keçirilən Avropa birinciliyində I, 2021-ci ildə Tatarıstanın Kazan şəhərində I MDB Ölkələri Oyunlarında sərbəst güləş üzrə III yeri tutmuşam”.

## Yetirmələrim həmişə başımı uca ediblər

Əməkdar məşqçi, Əməkdar Bədən Tərbiyəsi və İdman xadimi məşqçi-müəllim Balasan Eynullayev 1942-ci ildə Bakı şəhərində anadan olub. Boksla məşğul olmağa hələ uşaq yaşlarından başlayıb: İdmanla məşğul olduğum dövrlərdə 11 qat Azərbaycan çempionu olmuşam. Yetişdirdiyim idmançılar həmişə mənim başımı uca ediblər. Onlar bir çox mötəbər yarışlarda ölkəmizin idman şərəfini ləyaqətlə qoruyublar. Hər birimizin əldə etdiyimiz bu uğurlara görə Təhsil Nazirliyi “Təhsil” Respublika İdman Mərkəzinin 1 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin rəhbər və kollektivinə öz dərin minnətdarlığımı bildirirəm.

**Rəşad ZİYADOV**